www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 fevral 2016-cı il Bazar ertəsi № 47 (6368) Qiyməti 60 qəpik

Xəbər

**Şamaxıda tələbə qız dəm qazından öldü**

yazısı səh.14-də

## Gündəm

**Ermənistana keçmək istəyən Qəbələ sakinlərini nə gözləyir?**



Hadisədə təxribat izi də görünür; sakinlərinin addımları birmənalı qarşılanmır; Mirvari Qəhrəmanlı: "Düşmən qapısına getmək bağışlanmazdır..."

yazısı səh.3-də

**Nardaran olaylarında ölənlərin dəfn edildiyi yer bilindi**

yazısı səh.10-da

**Rusiya İlham Əliyevin Vaşinqton səfərini də əngəlləyə bilərmi?**

yazısı səh.6-da

**Azərbaycanın kredit reytinqi ən aşağı səviyyəyə endirildi - ekspertlər həyəcan təbili çalır**

yazısı səh.4-də

*Cəmil Ünal:*

**"Rəsulzadə yoluna qayıdılsa, Azərbaycan bütün dərdlərdən qurtulacaq..."**

yazısı səh.2-də

**AŞPA sədri həbsxanada İlqar Məmmədovla görüşəcək**

yazısı səh.5-də

**İranda azərbaycanlı-kürd qarşıdurması: seçkilərə hiylə qatılması sulduzluları ayağa qaldırdı**

yazısı səh.5-də

*Sərdar Cəlaloğlu:*

**"Təbabətdə tədricən zəhərləyən dərmanlar var..."**

yazısı səh.4-də

**Adı bizim, dadı məmurların - Xəzər sahilindəki hasarlar arxasında lüks həyatla bağlı yeni faktlar**

yazısı səh.10-da

**Hüquqşünas: "Kredit borcuna görə vətəndaşın həbsi mümkün deyil"**

yazısı səh.12-də

**Toylarımızda "Vağzalı" dəbdən düşür, yerinə əcnəbi musiqisi gəlir, səbəb...**

yazısı səh.14-də

## Dəyişən şərtlər qaz intriqalarını yeni dönəmə daşıyır

# BU GÜN BAKIDA BÖYÜK GÜCLƏRİN HƏLLEDİCİ SAMMİTİ KEÇİRİLİR - SENSASİON GƏLİŞMƏLƏR

Azərbaycan-Qərb enerji əməkdaşlığı yüksək mərhələyə keçir; TANAP-ın ardınca TAP-ın da inşası başlanır; İranın da qoşula biləcəyi böyük enerji layihəsi Rusiyanın "ofsayd" statusunu möhkəmlədəcək; Putinin iki gündə Bakıya iki dəfə telefon açmasının daha bir motivi...




yazısı səh.8-də

## İcra başçısına korrupsiya ittihamı - şok faktlar

Ağcabədidəki büdcə talanının xəritəsi dövlət orqanlarına göndərildi; rayon sakininin "Yeni Müsavat"a yolladığı məktubda milyonların necə ələ keçirilməsi öz əksini tapıb...

yazısı səh.11-də



Mahmud Qəssaboğlu

**Səddam Hüseynin zindanında yatmış türkməndən "Yeni Müsavat"a ilginc açıqlamalar**

yazısı səh.7-də



Aureliya Qruqoriu

**Azərbaycanın böyük dostu erməniləri rüsvay etdi**

yazısı səh.9-də



**Sərdar Həmidov ağır durumda xəstəxanaya yerləşdirildi**

yazısı səh.2-də

29 fevral 2016



# Latviya NATO-dan təcili kömək istədi: "Rusiya müharibəyə başlayıb"

**NATO-nun Şərqi Avropadakı üzvləri alyansı Rusiya ilə sərhəddə mümkün qədər qısa müddət ərzində sanballı hərbi qüvvə cəmləşdirməyə və bu qüvvələri "maksimal uzun müddətə" orada saxlamağa çağırır.**

Virtualaz.org xəbər verir ki, bu narahatlıq Rusiyanın Baltik ölkələrinə mümkün hərbi intervensiyası ilə bağlıdır. "The Washington Post" qəzetinin yazdığına görə, Latviyanın xarici işlər naziri Edqars Rinkeviç fevralın 26-da Vaşinqtona səfəri zamanı NATO-nun iyulda Varşavada keçiriləcək sammitini gözləmədən alyansın Baltik regionunda güclü qoşun birləşmələri dislokasiya etməli olduğunu deyib. Nazirin sözlərinə görə, NATO "olduqca birmənalı və qətiyyətli bəyanatla" çıxış edərək Rusiyanı mümkün hərbi intervensiyadan çəkindirmək üçün regionda hərbi qüvvə cəmləşdirəcəyini bildirməlidir.

"Bu qüvvələr nə qədər uzun müddət lazım olsa, o qədər regionda qalmalıdır, çünki bizim belə qonşumuz var" - Edqars Rinkeviç deyib. Rinkeviçin sözlərinə görə, alyansın hazırda Baltik regionundakı bir neçə yüz nəfərlik kontingenti Rusiya təhdidinə qarşı yetərli deyil. "Bu hərbi kontingentin sayını artırmaq, o cümlədən ağır silahlar və tanklar cəmləşdirmək lazımdır".

Xarici işlər naziri Latviyanın hava hücumundan müdafiə sistemini gücləndirməyə də kəskin zərurət hiss etdiyini deyib. Nazirin sözlərinə görə, Latviya hava hücumundan müdafiə sistemini gücləndirsə NATO-nun əsas qüvvələrinin köməyə yetişməsinə qədər ölkəni müdafiə edə bilərdi.

Rusiya ilə NATO arasında 1994-cü ildə imzalanmış razılaşmaya əsasən alyans Şərqi Avropa ölkələrinin ərazisində daimi əsasda çoxsaylı hərbi kontingent yerləşdirməməlidir. Təhlükəsizliyi təmin etmək üçün köməyə yetişməyə hazır qüvvələri Qərbi Avropadakı bazalarda saxlamalıdır. Bu səbəbdən Rusiya xəbərdarlıq edir ki, Baltik ölkələrində NATO-nun iri hərbi kontingentinin yerləşdirilməsi bu razılaşmanın pozulması deməkdir və dərhal adekvat cavab tədbirlərinin görülməsinə səbəb olacaq.

Lakin Latviya xarici işlər naziri deyib ki, onun ölkəsi Rusiyanın getdikcə artan hərbi təhdidləri qarşısındadır. Rinkeviçin sözlərinə görə, Rusiya artıq "hibrid müharibəyə" başlayıb, bura təxribatçı hərbi addımlar və təbliğat metodlarından istifadə daxildir. Nazir deyib ki, əvvəl Rusiya təbliğatı Baltik ölkələrinin rusdilli əhalisinə hesablanmışdı, indi isə bu təbliğat cəmiyyətin bütün təbəqələrinə şüuraltı təsir göstərməyə hesablanıb.

Xatırladaq ki, bu günlərdə ABŞ-ın hərbi araşdırmalar üzrə nüfuzlu "Rand Corporation" şirkəti Pentaqonla birlikdə keçirdiyi kabinet hərbi təlimlərinin nəticəsi olaraq Rusiyanın Baltik regionundakı NATO qüvvələrini cəmi 36 saata darmadağın edərək Riqanı, Tallini və Vilnüsu tuta biləcəyini bildirib. Şirkət bu qənaətə gəlmişdi ki, NATO Rusiyanın mümkün hücumunu dayandırmaq üçün təcili olaraq regionda on minlərlə hərbçi, çoxsaylı tanklar və digər texnika yerləşdirməlidir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# Türkiyədən Məhəmməd Əmin Rəsulzadə ilə bağlı mühüm mesaj

## Cəmil Ünal: "Rəsulzadə yoluna qayıtdığınız zaman Azərbaycan bütün dərdlərdən qurtulacaq, buna əminəm..."

**"Əgər siz Məhəmməd Əmin Rəsulzadənin məzarını Azərbaycana aparmaq istəyirsinizsə, onda hakimiyyət bir qərar qəbul etsin, desin ki, Məhəmməd Əmin Rəsulzadə Azərbaycan milli dövlətinin qurucusu və ilk dövlət başçısıdır. Qoy əvvəlcə Milli Məclis bununla bağlı bir qərar çıxartsın, bu sitat da orada əksini tapsın".**



Azərbaycan Kültür Dərnəyinin rəhbəri, M.Ə.Rəsulzadənin silahdaşı Cəmil Ünal Rəsulzadənin Ankaradakı məzarının Azərbaycana köçürülməsi təklifləri ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bunu bildirib. Onun sözlərinə görə, indiki durumda M.Ə.Rəsulzadənin nəşinin Bakıya aparılması mümkün deyil: "Əgər dediyim qərar olmasa, Rəsulzadə üçün nə edəcəksiniz? Parkda (Gəncəni nəzərdə tutur-E.P.) bir dənə heykəli var idi, onun da başına torba keçirtdiniz. Belə olan təqdirdə Məhəmməd Əminin nəşini hansı adla aparacaqsınız?" C.Ünal bundan əvvəl eks-prezidentlərin statusu ilə bağlı verilən qərarı xatırlayıb: "Hətta Ayaz Mütəllibova eks-prezident statusu verildi, maaş ayrıldı. İndi də siz Məhəmməd Əmin Rəsulzadənin bu dövlətin keçmiş başqanı olması barədə bir qanun çıxarın, sonra nəşini istəyin. Yoxsa məzarını söküb sizə versək də, siz onun sümüyünə sahib ola bilməzsiniz. Onun məzarı 61 ildir burda durur. Ancaq Elçibəydən başqa, bir dövlət başçınız gəlib onun məzarını siyarət edibmi?"

Elçibəy zamanında M.Ə.Rəsulzadənin məzarı üçün yer və vəsait ayrıldığını, ancaq işlərin yarımçıq qaldığını söylədi: "Əvvəlcə bu məsələləri həll edin, sonra məzarını istəyin. Yoxsa "Məhəmməd Əmin Rəsulzadə gəlsin!" Nəyə gəlsin? Məhəmməd Əmin Rəsulzadənin doğum günündə dövlət hansı tədbir keçirir? Bir Məhəmməd Əmin Rəsulzadə ili elan olundu, 5 dəqiqə Rəsulzadədən danışılmadı.

Azərbaycan Kültür Dərnəyinin Ankaradakı ofisində baş tutan görüşdə Cəmil Ünal əməkdaşımızdan Azərbaycana səmimi salamlarını çatdırmağı xahiş edib: "Özlərinə yaxşı baxsınlar. Gələcək onlarındır, gələcək müsavatçıların, Məhəmməd Əmin Rəsulzadənin yolu ilə gedənlərindir. Azərbaycanın gələcəyi o yoldadır. O yola qayıtdığınız zaman Azərbaycan bütün dərdlərdən, sıxıntılardan qurtulacaq, buna əminəm".

Sonda Dərnək rəhbəri "Yeni Müsavat" vasitəsilə Azərbaycan xalqına xitab edib: "Keçmişinizə sahib çıxın! Keçmişinə sahib çıxmayan millətin gələcəyi yoxdur. Sizin gələcəyiniz buna bağlıdır".

❑ **Elşad PAŞASOY**

**FOTO: "YM"**



# Sərdar Həmidov ağır durumda xəstəxanaya yerləşdirildi

**Tərtər Özünümüdafiə Batalyonunun sabiq komandanı, Tərtər rayonunun icra başçısı olmuş Sərdar Həmidov ağır durumdadır. Bu barədə müsavat.com-a onun oğlu Şəhriyar Məcidzadə məlumat verdi: "Səhər saatlarında qəfildən halı pisləşdi, huşunu itirdi. Ağır vəziyyətdə 1 saylı Mərkəzi Kliniki Xəstəxanaya (Semaşko-red.) yerləşdirmişik. Durumu son dərəcə ağırdır".**

Qeyd edək ki, S.Həmidov birinci Qarabağ savaşında bir neçə güllə yarası alıb, ağciyərinin bir payını itirib. Uzun illərdir o, yuxarı tənəffüs yolları xəstəliyindən, hipertoniyadan, diabetdən əziyyət çəkir.

# Bakıda zibillikdən tapılan 90 kilo pul Mərkəzi Banka verildi

**2015-ci ildə Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodunda aparılan çeşidləmə zamanı müxtəlif nominalda 90 kq-dan artıq xırda pul tapılıb.**

Bu barədə fins.az "Təmiz Şəhər" ASC-nin ötənilki fəaliyyətinə dair yaydığı hesabata istinadən xəbər verir. Məlumata görə, həmin pullar Azərbaycan Mərkəzi Bankına təhvil verilib.

Bundan başqa, çeşidləmə prosesində müxtəlif sənədlər (şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, diplom, hərbi bilet və s.) də tapılıb. Onlar isə Bakı Şəhər Baş Polis İdarəsinin Tapıntılar Bürosuna çatdırılıb.

# Heyvansevərliyinə görə daş-qalaq edilən azərbaycanlı haqda film

**Güney Azərbaycanın Təbriz şəhərində heyvanları bəsləyən azərbaycanlı qadın haqqında sənədli film çəkilib. "Mən İsmətəm" adlanan filmdə 49 yaşlı qadının həyatından, onun heyvanlara olan böyük sevgisindən söz açılır.**

Filmin qəhrəmanı İsmət adlı qadın kirayələrdə yaşamasına, yaşadığı maddi və mənəvi çətinliklərə baxmayaraq həyatının bir hissəsini küçələrdə və şəhərdən kənarda yaşayan sahibsiz heyvanlara, onların qorunmasına sərf edir. Gecə-gündüz heyvanlara yemək verən, yaralı heyvanların imdadına çatan qadın bu hərəkətinə görə dəli hesab edilərək dəfələrlə yerli sakinlər tərəfindən daş-qalaq edilib, döyülüb.

Qeyd edək ki, filmin rejissoru və ssenaristi Leyla Novruzidir. Operator Qadir Farivardır. Çəkilişlər Məhəmməd Alımuradi və Əsgər Qulinicada məxsusdur.

Filmin rəhbəri Leyla Novruzinin müsavat.com-a verdiyi məlumata görə heyvansevər azərbaycanlı qadından bəhs edən sənədli filmİN bu yaxınlarda keçiriləcək İran Film Festivalında iştirakı gözlənilir.

❑ **Xalidə GƏRAY**

# Azərbaycanlı milyarder "tender kralları" siyahısında

**"Forbes" jurnalının rus versiyası Rusiyanın dövlət büdcəsindən ötən il ərzində ən çox podrat sifarişləri alan şirkətlərin reytinqini dərc edib. Virtualaz.org xəbər verir ki, siyahıda prezident Putinin dostu Arkadi Rotenberqin "Stroyqazmontaj" şirkəti liderlik edir. Bu şirkət dövlət büdcəsindən 555.5 milyard rubl həcmində tikinti sifarişi alıb. Bu layihələrdən ən irisi Krıma Kerç körfəzi üzərindən körpü tikintisidir. Layihənin dəyəri 228 milyard rubldan çoxdur.**

Oliqarx Leonid Mixelson isə siyahıda ikincidir Onun şirkəti "Qazprom"la Amursk qaz emalı zavodunun tikintisinə dair müqavilə bağlayıb. Müqavilənin dəyəri 344 milyard rubldur. Putinin digər dostu Gennadi Timçenko isə siyahıda üçüncüdür. Onun "Stroyqaztrans" şirkəti dövlət büdcəsindən 161 milyard rubl həcmində sifariş alıb.

Azərbaycanlı oliqarx Araz Ağalarov da ilk onluqdadır. Onun "Crocus Group" şirkətinin büdcədən aldığı sifarişlərin həcmi 70 milyard rubla yaxındır. Bura Kalininqradda və Rostovda iki stadionun tikintisi layihəsi də daxildir.

# 14 ailə üzvünü yatdığı yerdə öldürdü

**Hindistanda kişi ailəsinin 14 üzvünü bıçaqla öldürüb, sonra isə özünü asıb. APA-nın məlumatına görə, "Indian Express" qəzeti yazır ki, Thana şəhərində bayram tədbirlərinin təşkilatçılığı ilə məşğul olan 35 yaşlı Hansil Varekarın evində fevralın 27-də qonaqlıq olub, mərasimdən sonra bir neçə qonaq onların evində gecələyib.**

Gecə saat 2 radələrində H. Varekar evin giriş qapılarını bağlayaraq, arvadını, 8 uşağını, 3 bacısını və valideynlərini yatdıqları yerdə qətlə yetirib. Hadisəni törətdikdən sonra isə özünü asıb. Onun qətli törətdiyi bıçaq meyitinin yanında aşkarlanıb. Hadisə barədə polisə H. Varekarın sağ qalmış bacısı məlumat verib. Cinayətin motivləri hələlik məlum deyil, polis araşdırma aparır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016


**Fevralın 27-də Qəbələnin Kötüklü kəndinin 25 nəfər sakininin ağ bayraqla Ağdam ərazisindən Ermənistana keçərkən saxlanılması Azərbaycan gündəmini silkələdi. Hazırda Ağdam polisində saxlanılan sakinlər Nəbiyevlər ailəsinin zülmünə görə belə addım atdıqlarını bildiriblər.**

# Ermənistana keçmək istəyən Qəbələ sakinlərini nə gözləyir?

## Hadisədə təxribat izləri də görünür; sakinlərinin addımları birmənalı qarşılanmır

Hadisə iştirakçısı Ramin İsmayılov mətbuata açıqlamasında bunları deyib: "Nəbiyevlər uşaqlarımızı şərləyib tuturlar. "Azərişıq"ın Bakı üzrə nümayəndəsi Qara Nəbiyev, vergilər nazirinin müşaviri Müsavər Nəbiyev, kəndin icra nümayəndəsi İkram Nəbiyev Qəbələ rayonunu ələ alıblar. Onlar bizi yaşamağa qoymurlar. Kiminsə evinə, maşınına narkotik atıb tuturlar. Bundan bezib Ermənistan tərəfə keçmək istədik. Özümüzü erməni güllələsinin qarşısına verib canımızı Nəbiyevlərin zülmündən xilas etmək istəyirdik".



**Mirvari Qəhrəmanlı:** "Düşmən qapısına getmək bağışlanmazdır"



**Akif Nağı:** "Cinayət məsuliyyətinə cəlb olunmalıdırlar"

Qeyd edək ki, Qəbələ sakinlərinin düşmən ölkəyə keçmək cəhdləri heç də ictimaiyyətdə birmənalı qarşılanmayıb. Onların ünvanına sərt tənqidlər var. Bunun fonunda Nəbiyevlər ailəsinin etdiyi haqsızlıqlara görə sakinlərə haqq qazandıranlar, eyni zamanda hadisədə təxribat izi axtaranlar da yox deyil. Hazırda sakinlərin taleyinin necə olacağı sual doğuran məsələlərdəndir.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** bildirdi ki, Qəbələ sakinlərinin etdikləri dövlətimizin dünyada imicinə təhqirdir: "Vətəndaşlar düşünüblər ki, onlara qarşı ədalətsizlik olub. Araşdırmadan bu məsələlərə qiymət vermək bir qədər çətindir. Burada ətrafın diqqətini cəlbetmə cəhdləri də var. Amma istənilən halda ədalətsizliyə qarşı müxtəlif etiraz formaları var. Qəbələ sakinlərinin sərhədi keçmək istəklərinin olub-olmaması onların ifadələrindən məlum olacaq. Atılan addım düşünülmüş şəkildə olmayıb. Erməni düşmənimizdir. Sakinlər Gürcüstan, İran tərəfə keçə bilərdilər. Bu daha asan idi. Bununla da diqqət çəkmək olardı".

Hüquq müdafiəçisi Qəbələliləri gözləyən cəzalardan da söz açdı: "Təbii ki, onlara müxtəlif cəza növləri tətbiq oluna bilər. Amma hər şeydən öncə bu araşdırılmalıdır. Onların müdafiə olunmaq hüquqları var. Hüquq müdafiəçisi kimi yox, Azərbaycan vətəndaşı kimi hesab edirəm ki, onlara cəza növləri tətbiq olunmalıdır. Buna görə məni ittiham edəcəklər. Amma torpağımı zəbt edən, minlərlə şəhid verməyimizə səbəb olan düşmənin qapısına getmək bağışlanılmazdır. Yəqin ki, onlar cəzalandırılacaqlar. Bəlkə də elə motiv tapılacaq ki, onlar bağışlanacaqlar. Burada təxribat da ola bilər. Təşkilatçını üzə çıxarmaq lazımdır. Orada kimsə günahkar ola bilər".

M.Qəhrəmanlı Nəbiyevlər ailəsinə də toxundu: "Bu hissə daha ciddi araşdırılmalıdır. Regionlarda "kiçik padşahlar" mövcuddur. Nəbiyevlər ailəsi insanları buna məcbur edən tərəf kimi məsuliyyətə cəlb olunmalıdır. Niyə onlar rayonda hegemonluq edirlər? Hansı cəhətlərinə görə ağalıq etməlidirlər? Bütün rayonlarda tayfalar var ki, sakinləri belə yollara təhrik edirlər. Nəbiyevlər ailəsi barəsində cinayət işi başlanmalıdır. Onlar milləti alçaltmaq dərəcəsinə çatdırıblar. İttihamları ağır olmalıdır. Ölüm həddinə çatdırmaqla, düşmən qapısına göndərmək arasında heç bir fərq yoxdur".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** bu hadisənin cəmiyyət və dövlət üçün ciddi siqnal olduğunu söylədi: "Hadisə iki istiqamətdə araşdırılmalıdır: burada obyektiv səbəb var, yoxsa təxribat izi? Rusiya və Ermənistanın da əli ola bilər. İstənilən halda prosesdə iştirak edənlər dövlətçilik, ictimaiyyət qarşısında məsuliyyətlərini dərk etməlidirlər. Maraqlarımıza uyğun gəlməyən hadisədir. Haqsızlıq ola bilər. Əgər ölkəni tərk edirsinizsə, niyə məhz Ermənistana? Dəməli burada siyasi motivlər var. Vətəndaşların diqqəti cəlb edib, problemlərini bu yolla həll etmək cəhdləri də ola bilər. Amma istənilən halda səhv addımdır. Düşmən düşməndir. Ermənistanda vəziyyət guya yaxşıdır? Oradan da Azərbaycana qaçanlar var. Aylar öncə hətta partiya rəhbəri ölkəmizə pənah gətirdi. Hansısa məmurun cəzasını dövlətçilikdən çıxmaq yolverilməzdir. Vətəndaşlar bunu düşünməlidirlər. Məmur haqsızlığı çoxdur. Nazirlər bölgələrə görüşlərə gedirlər, amma problemləri olanları yox, öyrədilmiş rayon sakinlərini qəbul edirlər. Mənə dəfələrlə bu barədə müraciətlər olub. Sadəcə, görüntü xarakteri daşıyır. Yerlərdəki məmurlar özlərini ədəbsiz aparır, insanlara zülm edirlər. Dövlət səviyyəsində bu məsələyə diqqət ayrılmalıdır. Məmurların al-ayaqları yığışdırılmalıdır. Qəbələ sakinlərinin addımları dövlətçilik məsələsidir. Bu insanlar hansısa formada düşmən ölkəyə keçməyə cəhd edirlərsə, deməli, Ermənistanın siyasətinə xidmət edirlər. Onların hərəkətlərinə haqq qazandırırlar. Onlar xalq qarşısında mənəvi məsuliyyət daşıyırlar. Hərəkətləri cinayət məsuliyyəti yaradır. Bu baxımdan cinayət məsuliyyətinə cəlb olunmalıdırlar".

❑ **Cavanşir ABBASLI**

# Quzey Kipri azad edən generalla mühüm görüş

## İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Türkiyə səfəri başa çatıb

**Bir həftə ərzində Türkiyədə səfərdə olan İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Azərbaycan təmsilçiləri son görüşlərini İstanbulda keçiriblər. Forum üzvləri əvvəlcə Türkiyənin Əməkli Subaylar Dərnəyinin (Ehtiyatda Olan Zabitlər Birliyi) sədr müavini general Cümur Evcin, Müharibə Qaziləri Dərnəyinin İstanbul şöbəsinin rəhbəri polkovnik Əhməd Kəndigəl və digər zabitlərlə görüşüblər.**

Qeyd edək ki, Cümur Evcin, Quzey Kipr Türk Cümhuriyyəti qazisidir və "Yavru vətən"in azad olunması uğrunda savaşda şəxsən iştirak edib. Türk generalı Azərbaycan torpaqlarının azad olunması naminə istənilən dəstəyi verməyə hazır olduğunu bəyan edib, Xocalı qatillərinin cəzalandırılması üçün nə lazımdırsa edilməli olduğunu vurğulayıb.

Forumun təsisçilərindən Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri, Emin Həsənli, Qarabağ Əlilləri Müharibə Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri, Mehdi Mehdiyev, Azərbaycan Beynəlmiləlçi Əlil Döyüşçülər Fondunun prezidenti, Qarabağ qazisi Sərraf Orucov və 20 Yanvar Təşkilatının sədr müavini Mustafa Qaramanlının iştirak etdiyi görüşdə Türkiyə-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi, düşmənə qarşı vahid cəbhədə mübarizə aparılması zərurəti vurğulanıb. Qarabağın işğaldan azad olunması prosesində Türkiyənin oynaya biləcəyi rolun mühümlüyü qeyd olunub, türk dünyasının qalası olan Türkiyənin parçalanmasına yönəlik layihələr lənətlənib.

Qarabağın azadlığı yolunda mübarizədə Türkiyənin Azərbaycanla bir yerdə olduğunu deyən EminHəsənli Azərbaycanın da daim terrordan əziyyət çəkən Türkiyə ilə bir yerdə olacağını əminliklə vurğulayıb. Türkiyə təşkilatları Forumun işində aktiv iştirak etməyə hazır olduğunu bildirib. İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun üzvləri türkiyəli zabitləri Bakıya dəvət ediblər. Görüşün sonunda hədiyyələr və plaketlər təqdim olunub.





**Azərbaycan Türkiyə Dərnəyinin başqanı Səfər Qaraqoyunlu** qonaqları səmimi salamlayıb, türk dünyasının problemlərindən danışıb, hədəflərə yetişmək üçün əməkdaşlığın dərinləşdirilməsini vacib saylıb. Forumun təsisçilərindən Akif Kərimov, Mehdi Mehdiyev, Emin Həsənli, Akif Nağı və digərləri çıxış edərək Türkiyə və Azərbaycanı narahat edən problemlərdən bəhs ediblər. Xocalı soyqırımına həsr olunmuş konfransda Türkiyə və Azərbaycanın Türk dünyasının iki əsas mərkəzi olduğu xüsusilə vurğulandı və bu mərkəzlərin birgə hərəkəti naminə çalışmaların dayanmadan davam etdirilməsi zərurətindən danışılıb. Dərnək rəhbərliyi yeni yaradılan Forumla əməkdaşlıq edəcəklərini vurulayıb. Sonda görüş iştirakçıları qarşılıqlı olaraq plaketlər və xatirə hədiyyələri təqdim edib. Azərbaycan Türkiyə Dərnəyi bütün iştirakçılara Türkiyə və Azərbaycanın qardaşlığını simvolizə edən döş nişanlarını da hədiyyə edib.

Səfərin yekununda Forumun təsisçilərindən biri, QAT sədri Akif Nağı "Yeni Müsavat"a təəssüratlarını bölüşüb: "Biz görüş xatirinə görüş keçirmirik, səfər xatirinə səfər getmirik. Türk, İslam dünyası dünyanın böyük qisminin təzyiq və təhdidləri altındadır. Bizləri aciz, zəif görmək istəyənlər, bizim güclənməyimizdən qorxanlar çoxdur. Bütün bu təhlükələri aşmaq, güclü olmaq, dünya düzənində yer almaq üçün yorulmadan hər kəs çalısmalıdır. Hər kəs başqasının öz borcunu yerinə yetirib-yetirmədiyi ilə deyil, özünün nə etdiyi və etməli olduğu ilə maraqlanmalıdır. Biz də Forumu yaratmaqla, bu səfərlə gücümüz çatan işləri görməyə çalışdıq. Düşünürəm ki, nəsə edə bildik, ən azından vicdanımız qarşısında öz borcumuzu yerinə yetirməyə cəhd göstərdik. Səfərin yekunları ilə bağlı çox fikirlər söyləmək olar. Amma ehtiyac yoxdur. Çətinliklərlə başladıq, əlavə çətinliklərin içərisinə düşdük, amma bacara bildik. Qalanını gələcək göstərəcək".

❑ **E.PAŞASOY**
❑ **FOTO: "YM"**

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016



# Suriyada atəşkəs dayanıqlı olmayacaq, çünki...

**Qabil Hüseynli:** "İŞİD-in kökü kəsilməyincə bu ölkədə vəziyyət normallaşmayacaq"


Qabil Hüseynli

**Fevralın 27-nə keçən gecədən Suriyada atəşkəs elan olundu. Bir müddət idi ki, hamının diqqəti iki fövqəlgüc arasındakı dialoqda idi - hamı ABŞ-la Rusiya arasındakı danışıqları izləyirdi. Danışıqlar isə atəşkəs razılaşması ilə başa çatdı.**

Bəzi təhlilçilər hesab edir ki, regionda açar oyunçulardan sayılan Türkiyə və İrandan gizli aparılan və onların da razılığı olmayan anlaşmalar çətin ki, yetərli effekti versin. Atəşkəsin dayanıqlı və uzunömürlü olması üçün təkcə iki dövlətin - Rusiya və ABŞ-ın razılaşması yetərli deyil.

Bu mövzuda fikirlərini "Yeni Müsavat"la bölüşən **politoloq Qabil Hüseynli** bildirdi ki, Suriyadakı prosesin nizamlanmasında bir neçə dövlət iştirak edir. İran da, Türkiyə də, Səudiyyə Ərəbistanı da Rusiya və ABŞ-la yanaşı prosesdə əslində iştirakçıdırlar: "Martın ilk on günlüyündə danışıqlar başlamalıdır. Bu danışıqlarda Suriyada keçid dövrünün məsələsi müzakirə edilməli, "Yol xəritəsi" cızılmalıdır. "Yol xəritəsi"ndə yenə də kəskin fikir ayrılıqlarının meydana çıxması ehtimalı böyükdür. Məsələn, atəşkəs barədə razılığa gəlindikdən sonra Barak Obama və Con Kerri bir neçə dəfə bəyan ediblər ki, Suriyanın gələcəyində Bəşər Əsədi görmürlər. Rusiyanın xarici işlər nazirinin müavini səviyyəsində isə bəyan edildi ki, Suriyada qanuni rejim Bəşər Əsəd rejimidir. Eyni zamanda fevralın 27-də Rusiya XİN-in sözçüsü dedi ki, biz Bəşər Əsədi müdafiə etmirik. Bunu ictimai rəyi aldatmaq üçün deyilmiş diplomatik xarakterli ötəri fikir də hesab etmək olar. Bu səbəbdən martın 6-7-də olacaq Vyana danışıqlarında gündəmdə duran birinci məsələ Suriyada rejim dəyişikliyi və koalision hökumətin qurulması məsələsi olacaq. Bu məsələdə Vaşinqton, Türkiyə, Səudiyyə Ərəbistanı Əsədin iştirakını məqbul hesab etmir. Amma məncə, Rusiya Əsəd məsələsində dirənəcək. İŞİD-in kökü kəsilməyincə Suriyada vəziyyəti normallaşdırmaq mümkün olmayacaq. Suriya məsələsinə yuxarıda adını çəkdiyim ölkələrin baxış bucağında fərqlər olduğu üçün prosesin asan keçəcəyi, atəşkəsin də dayanıqlı olacağı ehtimalı azdır".

Politoloq onu da dedi ki, son üç gündə verilən bəyanatlar da əldə edilmiş atəşkəs sazişinin kövrək bir saziş olduğunu göstərir: "Bu saziş istənilən vaxt pozula bilər. Xüsusən Suriya Azadlıq Ordusu ilə Bəşər Əsəd ordusu, eyni zamanda Rusiyanın oradakı hərbi qüvvələri arasında münasibətlər gərgin olaraq qalır. Problemlərdən biri də odur ki, atəşkəs rejiminə nəzarət etmək çox çətindir. Ölkə başdan-başa dağıdılıb, infrastruktur pozulub, yollar demək olar ki, yox dərəcəsindədir. Bu mənada nə BMT-nin, nə də hər hansı digər beynəlxalq strukturun buradakı atəşkəs rejiminə nəzarət etmək imkanı yoxdur. Sadəcə, Rusiya və ABŞ kosmosdan buradakı prosesləri izləmək imkanlarına malikdirlər. Belə demək mümkündürsə, atəşkəsin uzunömürlü olmasını hamı istəyir, ancaq təkcə istəklə iş başa çatmır, atəşkəs çox kövrək bir zəminə oturdulduğundan istənilən vaxt pozula bilər".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanın kredit reytinqi ən aşağı səviyyəyə endirildi

## Ekspertlərə görə, bu səviyyə sərmayə yatırımı üçün çəkindirici sayılır...

**"Fitch Ratings" agentliyi Azərbaycanın kredit reytinqini "BB+" səviyyəsinə endirib. Azərbaycanın əvvəlki reytinqi "BBB-" səviyyəsində qiymətləndirilirdi. "Fitch" reytinqin endirilməsini ölkə iqtisadiyyatın karbohidrogen ehtiyatları ilə bağlı olması, neftin qiymətinin ucuzlaşması və valyuta ehtiyatlarının azalması ilə izah edir. Reytinq üzrə proqnoz "mənfidir".**




Agentlik reytinqin endirilməsini neftin ucuzlaşmasından sonra dövlət büdcəsinin doldurulmasından yaranmış çətinliklərlə izah edib. Azərbaycanın yeni reytinq dərəcəsi- "BB+" səviyyəsi "spekulyativ" və ya "zibil" səviyyə hesab olunur. Bu səviyyə sərmayə yatırımı üçün çəkindirici sayılır.

Qeyd edək ki, yanvarın 29-da "Standard&Poor's" reytinq agentliyi də Azərbaycanın uzunmüddətli kredit reytinqini "BBB-" səviyyəsindən "BB+" səviyyəsinə endirmişdi.

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bunu gözlənilən qərar adlandırdı: ""S&P" agentliyi eyni hərəkəti bir ay əvvəl etmişdi. Buna görə də "Fitch"in reytinqimizi endirməsi gözlənilən idi. Səbəb aydındır: neftin qiymətinin düşməsi və neft hasilatının həcminin azalması üzündən ölkəmizin valyuta gəlirləri azalıb, iqtisadi böhran get-gedə dərinləşir. Buna görə də ölkəmiz üzrə xarici investorların riskləri artır. Reytinqimiz də onlara bu barədə xəbərdarlıq edir. Təbii, həm dövlətimiz, həm sahibkarlarımız üçün bundan sonra xaricdən uzunmüddətli və ucuz kreditlər cəlb etmək çətinləşəcək. Bizə daha az müddətə və daha yüksək faiz dərəcəsi ilə kredit verəcəklər. Hər hansı kredit müqaviləsində reytinqin aşağı düşməsi səbəbi ilə borcun vaxtından əvvəl qaytarılmasını tələb etmək imkanı nəzərdə tutulubsa, təbii, həmin xarici və ya beynəlxalq kreditor bu hüququndan istifadə edə biləcək".

Qeyd edək ki, ekspertlər Azərbaycanın kredit reytinqinin "zibil" səviyyəyə endirilməsinin borclanmada ciddi əngəl yaradacağını vurğulayırlar. Bir müddətdir ki, beynəlxalq reytinq agentlikləri Azərbaycan banklarının reytinqi ilə bağlı bədbin proqnozlar verir. Bundan əvvəl "Moody's" da Azərbaycanın kredit reytinqini "Ba1" pilləsinə qədər azaldaraq onu gələcəkdə də mövqeyinin endirilə biləcək səviyyəyə yerləşdirib.

Ekspertlər bildirirlər ki, reytinqin düşməsi banka etibarın azalması deməkdir. Reytinq ölkənin borclarını ödəmək qabiliyyətindən xəbər verir. Aşağı reytinq etibarın azalması və dövlətin borclarını vaxtında ödəmək qabiliyyətinə şübhələrin artması deməkdir. Neft gəlirlərimnin azalması borcları tam və ya vaxtında ödəyə bilməmək təhlükələri yaradır. Risk artdığı üçün kreditlərdə faiz dərəcəsi də yüksək olacaq. Reytinqin düşməsi o deməkdir ki, ölkəyə investisiya qoymaq olmaz. Ölkə borc alsa, çox yüksək faizlə almalıdır, yəni iqtisadi dayanıqlıq yoxdur.

Ekspertlər habelə vurğulayır ki, aşağı kredit reytinqləri ölkəyə investisiya cəlbini çətinləşdirəcək. Bu, investisiya riskinin yüksək olması deməkdir. Xüsusən xarici investorların Azərbaycanın bank sektoruna cəlbinə mənfi təsir göstərəcək. Reytinqin düşməsini görən xarici investorlar bank sektorundan öz vəsaitlərini geri çəkə bilərlər.

**Ekspert Rəşad Həsənov** da qeyd edir ki, kredit reytinqinin aşağı salınması gözlənilən idi: "Risklər artdıqca, kredit reytinqi aşağı düşməlidir. Bunun Azərbaycan üçün mənfi tərəfi ondan ibarətdir ki, bundan sonrakı borclanmalarda daha çox tələblərlə üzləşəcəyik. Eyni zamanda müddət məsələsində də ölkəmiz çətinliklərlə üzləşə bilər və daha bahalı faizlərlə borclanacağıq".

❑ **RÖYA**

# İlhamə Quliyeva sui-qəsdin qurbanıdır?


İlhamə Quliyeva

## Müğənninin zəhərlənməsi barədə iddialar gündəmdən çıxmır; Sərdar Cəlaloğlu: "Təbabətdə tədricən zəhərləyən dərmanlar var..."

**Müğənni İlhamə Quliyevanın vəfatından sonra onun barəsində ortaya atılan zəhərlənmə iddiası gündəmdən düşmür. Mərhum müğənninin ölümünün fonunda gizli sui-qəsd yolu ilə zəhərlənmələr məsələsi bir daha aktuallaşıb.**


Sərdar Cəlaloğlu

Dünya tarixində gizli yolla həyata keçirilən sui-qəsdlərin dəfələrlə şahidi olmuşuq. Xüsusilə, tanınmış şəxslərə qarşı bu üsullardan istifadə olunur. Məhz bu amillərə görə, İ.Quliyevanın zəhərlənməsinə inananlar gündən-günə çoxalır. Mərhumun qohumları və vəkilinin zəhərlənmə ilə bağlı açıqlamaları da bu qəbildən iddiaların çoxalmasına səbəb olub. Quliyevanın vəfatının ilk anlarından meyitin əvvəlcə ciddi ekspertizadan keçirilməsi, sonradan onun evində əl izlərinin götürülməsi, ardınca hüquq mühafizə orqanlarının müğənninin ölümündə sui-qəsd versiyasını araşdırmaları ilə bağlı yayılan xəbərlər zəhərlənmə iddiasına əlavə çalarlar.

Gizli sui-qəsdin yolları əsasən bunlardır - qida və içkilərə zəhər qatmaq, zəhərli spreylər, zəhərli diş pastası, zəhərli diş çöpü, zəhərli kitab, zəhərli üzük, zəhərli stul, zəhərli ülgüc, zəhərli siqaret və ya qəlyan, zəhərli çətir , zəhərli əlcək, salfet və qaz zəhərlənməsi.

Maraqlıdır, təbabətdə və məxfi sistemdə gizli sui-qəsdlə bağlı faktlar varmı?

**ADP sədri, həkim Sərdar Cəlaloğlu** tibdə belə halların olduğunu söylədi: "Misirdə olan bir siyasi qəsdi nümunə gətirəcəm. Prezident Camal Əbdül Nasiri masajisti bu yolla zəhərləmişdi. İçərində arsen deyilən təhlükəli zəhərli maddə olan kremlə onu 6-7 ay masaj etmişdi. Nəticədə dəridən həmin zəhəri yeritmişdi. Misir prezidenti o zəhərlənmədən öldü. Həkimlər bunu təsdiq etdilər və masajist də cəzasını aldı. Elə dərmanlar var ki, onlar müəyyən mərhələyə çatanda təsir etməyə başlayır. Hətta suyun özü belə çox içəndə zəhər kimi təsir edir. Təbabətdə tədricən zəhərləyən dərmanlar var. Qida, hava, su və digər hallarla xroniki zəhərlənmələr ola bilər. O baxır zəhərin necə təsir etməyindən. Biri var kəskin zəhərlənmə. Elə bir miqdarda zəhər bədənə daxil olur ki, bədən dərhal reaksiya verir. İlan saçmağı buna misal çəkə bilərəm. Amma elə zəhərli maddələr də var ki, bədənə az miqdarda daxil olanda büruzə vermir. Yavaş-yavaş bədəndə toplaşıb, müəyyən həddə çatanda həmin zəhərlənməni həyata keçirirlər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016

**Xəbər verildiyi kimi, fevralın 26-da İranda parlament seçkiləri keçirilib. Seçkilərin ilkin nəticələri isə Güney Azərbaycan əyalətlərində, xüsusən də Qərbi Azərbaycanın Sulduz şəhərində kəskin etirazla qarşılanıb. Buna səbəb həmin əyalətdə kürdlərin və onların terrorçu qrupları tərəfindən seçkilərin saxtalaşdırılması iddialarıdır.**



# İranda azərbaycanlı-kürd qarşıdurması

## Seçkilərdə kürd namizədin xeyrinə hiylə qatılması yerli sakinləri hiddətləndirib; GAMOH fəalı: "Qərbi Azərbaycanda yumşaq işğal və qəsb yolu ilə psixoloji bir savaş açılıb..."

Bununla bağlı olaraq fevralın 27-də azərbaycanlılardan ibarət minlərlə etirazçı Sulduz valisi binasının qarşısına toplaşaraq aksiya keçirib. Musavat.com İran mənbələrinə istinadən bildirir ki, aksiyaçılar seçkilər zamanı 20 min kürd seçicisinin kənardan Üşnəviyyəyə gətirildiyini və onların kürd namizədin xeyrinə səs verdiyini iddia ediblər. Etirazçılar bildiriblər ki, İran hökumətinin köməkliyi ilə seçki qurultularına 40 mindən çox saxta bülleten atılıb. Beləliklə kürd namizəd 62 min seçicinin səsini qazanaraq seçkilərdə qalib gəlib və Sulduz (Nəqədə) və Üşnəviyyə şəhərlərindən İran parlamentinə deputat seçilib.

Aksiyaçılar eyni zamanda Üşnəviyyə şəhərində əhalinin səsvermədə iştirakı 40 faiz təşkil etsə də, valilik tərəfindən bu rəqəmin 80 faiz olduğunu elan edilməsinə öz etirazlarını bildiriblər. Aksiyada "Sulduz Qarabağ olmayacaq!", "Sulduz azərbaycanlıların, türklərin şəhəridir və türklərin şəhəri olaraq da qalacaq" kimi şüarlar səsləndirilib.

Beləliklə, artıq iki gündür ki, Qərbi Azərbaycan əyalətinin azərbaycanlı türkləri ilə kürdlər arasında ciddi qarşıdurma, gərginlik yaşanır. Güney Azərbaycanın tanınmış milli fəallarından olan Cəmşid Zareinin müsavat.com-a verdiyi açıqlamasına görə, etirazların daha da aktivləşəcəyi gözlənilir: "Azərbaycanlı olan namizədin tərəfdarları bu gün də etirazlarına davam edirlər. Onlar seçkilərin yenidən keçirilməsini tələb edirlər. Əgər bu tələb təmin olunmazsa, kürd namizədin mandatlığı rəsmiləşərsə, qarşıdurma daha da gərginləşə bilər. Ümumiyyətlə, Sulduz şəhərində azərbaycanlı-kürd qarşıdurmaları çoxdan yaşanır. Belə ki, İran hökuməti təxminən 35 il bundan əvvəldən başlayaraq İraq, Suriya və digər ölkələrdən Qərbi Azərbaycana, xüsusən də Urmiyaya 200-300 min nəfərə qədər kürd köçürüb. Bu əyalətdə kürd nüfuzunun genişlənməsi yönündə kifayət qədər addımlar atılıb".

Sulduz olayları ilə bağlı Güney Azərbaycan Milli Oyanış Hərəkatının tanınmış fəallarından olan, "GAMAC" təşkilatının sözçüsü, Məhsa Mehdili də müsavat.com-a açıqlama verib. Əslən Salmas şəhərindən olan tanınmış milli fəal bu məsələdə bir neçə məqamı diqqətə çatdırıb: "Kürdlərin haqlarını müdafiə etmə iddiasında olan terror qrupları və "kürd" aydın və strategistləri İran hökumətinin əli ilə istisnasız şəkildə Qərbi Azərbaycanı "Kürdüstan"laşdırmaq uğrunda mübarizə aparırlar. Beləliklə, Qərbi Azərbaycanda yumşaq işğal və qəsb yolu ilə psixoloji bir savaş açılıb. İran hökuməti azərbaycanlı türkünün və onun torpaqlarının kürd qruplarının hədəfinə çevrilməsindən çox məmnundur.

Xatırladım ki, 1979-cu ildə Kürdüstan Demokratik Partiyası sədri Xomeyniyə yazdığı məktub və görüşlərində kürdlərə özərlik, Qərbi Azərbaycanı isə Kürdüstan torpaqları hesab edilməsini istəyirdi. Beləliklə, aprel ayında minlərcə silahlı gücünü Sulduza toplayaraq əhalini qətliam etdi. Sulduz olayları bir daha sübut etdi ki, İran hökuməti hazırda da bu siyasəti davam edir, kürd terror quruplarının Qərbi Azərbaycan torpaq iddialarını dəstəkləyir, Azərbaycan xalqına psixoloji təsir göstərməyə çalışır. Lakin azərbaycanlı türkləri olaraq Qərbi Azərbaycan torpaqlarına iddialıq edənlərə qarşı daim mübarizə aparacayıq. Çünki Təbriz başımız, Urmiya və Sulduz isə ürəyimiz, qalamızdır. Bizi ürəyimizdən vuraraq hərəkətsiz hala gətirə bilərlər".

Qeyd edək ki, Qərbi Azərbaycan əyalətinin Sulduz şəhərinin 75 min əhalisi var ki, onun da böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edir. Şəhərdə az saylı kürdlərin yaşamasına baxmayaraq, İran hökuməti şəhərin adını kürtcə Nəqədə olaraq dəyişdirib. Lakin azərbaycanlılar şəhəri öz tarixi adı ilə Sulduz adlandırırlar.

❑ Xalidə GƏRAY

# Rauf Mirqədirovun gözünün biri görmə qabiliyyətini itirib...

## AŞPA prezidenti İlqar Məmmədovla görüşəcək; Yunusların məhkəməsi olacaq; İntiqam Əliyevlə bağlı Avropa Məhkəməsinə müraciət hazırlanır

**"Ayna-Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun səhhətində ciddi problemlər yarandığı barədə xəbər vermişdik. Jurnalistin martın 3-də Bakı Apellyasiya Məhkəməsində növbəti prosesi olacaq.**

Bu barədə Mirqədirovun anası Rəfiqə İsayeva məlumat verdi: "Oğlumun səhhətində il yarımdır problemlər yaranıb. Başağrıları, təzyiqi tez-tez yüksəlir. Gözünün biri görmə qabiliyyətini itirmək üzrədir. Kitab oxuyanda gözü bərk ağrı verir. Artıq gözünün biri demək olar, görmür. Bu barədə mətbuat vasitəsilə müraciətim olub. Martın 3-də növbəti məhkəməsi olacaq. Həmin günü gözləyirik".

Hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun xaricdə müalicə olunması üçün Yasamal Rayon Məhkəməsinə etdikləri müraciət təmin olunmayıb. Yunusların işindən apelyasiya şikayəti verilib. Bu barədə onların vəkili Elçin Sadıqov bunları dedi: "Leyla və Arif Yunusların səhhətləri çox ağırdır. Onların xaricdə müalicə olunmaları üçün məhkəməyə müraciət etmişik. Ümid edirik ki, məhkəmə bunları nəzərə alacaq. İlk proses martın 4-də Bakı Apelyasiya Məhkəməsində olacaq. Yunuslarla bir həftə öncə görüşmüşəm. Hazırda ev şəraitində müalicə alırlar. Daim həkim nəzarətindədirlər. Onların müalicəsinə bunlar kifayət etmir. Leyla xanıma təcili əməliyyat lazımdır. Arif Yunusun da həyatı təhlükədədir".



Rauf Mirqədirov

Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL sədri İlqar Məmmədovun fevralın 25-də Şəki Apelyasiya Məhkəməsində prosesləri olub. Məhkəmə yenə də qeyri-müəyyən vaxta təxirə salınıb. Müsavat başqanının müavininin vəkili Nemət Kərimli məhkəmənin qanunsuz qərar qəbul etdiyini bildirdi: "Prosesdə hakim məhkəməni açıq elan edən kimi bildirdi ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin məktubu gəlib. Məktubda işin çoxluğu və nəqliyyatın çatışmamazlığı ilə bağlı İlqar Məmmədov və Tofiq Yaqublunun məhkəməyə gətirilmədiyi qeyd olunmuşdu. Buna münasibət bildirləndə, prokuror hər iki məhbusun məhkəmədə iştirakının vacib olduğunu söylədi. Vəkillər olaraq çıxış edəndə bildirdim ki, onları məhkəməyə gətirmək vəzifə borcu idi, bununla qəsdən işi uzatmaq istəyirsiniz. Tofiq Yaqublu və İlqar Məmmədov məhkəmədə iştirak etməməklə bağlı ərizə ilə müraciət ediblər. Onların iştirakı olmadan məhkəmə aparıla bilərdi. Amma məhkəmə siyasi çalarları nəzərə alaraq, prosesi qeyri-müəyyən vaxta təxirə saldı. Bununla bağlı bir addım ata bilmərik. Yalnız Avropa Məhkəməsinə müraciətdə bunları fakt kimi ortaya qoya biləcəyik. Məhkəmədən öncə Tofiq bəylə görüşdüm. Məhkəmədən ədalət gözləmədiyinə görə, prosesdə iştirak etmək istəmədiyini bildirdi".

REAL sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova Bakıya gələn AŞPA prezidenti Pedro Aqramuntun cəzaçəkmə müəssisəsində əri ilə görüşəcəyini bildirdi: "İlqarın məhkəməyə müraciəti necə idisə, fevralın 25-dəki prosesə də o cür oldu. Məhkəməni uzatmaqdan başqa əllərindən bir iş gəlmədi. İlqar özünü yaxşı hiss edir. AŞPA prezidenti Pedro Aramunt Bakıya səfəri çərçivəsində onunla görüşəcək".

Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin kassasiya şikayəti təmin olunmayıb. Müdafiə tərəfi Avropa Məhkəməsinə müraciət hazırlayır. Hüquq müdafiəçisinin vəkili Fəxrəddin Mehdiyev məhkəmə qərarını aldıqdan sonra yaxın günlərdə Avropa Məhkəməsinə müraciət göndərəcəklərini bildirdi.

❑ Cavanşir ABBASLI

# Sərdar Həmidova sahib çıxaq



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Adətən, hərdən bazar günləri səhər saatlarında özü mənə zəng edirdi. Gah gəzişib hava alırdıq, gah birlikdə səhər yeməyi yeyirdik, sonra nərd oynayırdıq. Bu bazar günü isə oğlu Şəhriyar Məcidzadə zəng etdi və həyəcanlı səs tonu ilə dedi: "Atamın vəziyyəti qəfildən pisləşdi, xəstəxanaya yerləşdirmişik, nəsə etməliyik, hər an hər şey ola bilər"...**

İllərdir Sərdar Həmidovla dostluq edirik. Mən onun yaşca ən balaca dostuyam. Olduqca maraqlı həmsöhbətdir. Tərtər Özünümüdafiə Batalyonunun sabiq komandanı, Tərtər rayonunun icra başçısı olmuş Sərdar Həmidovun o qədər güclü yaddaşı var ki, birinci Qarabağ savaşı ilə bağlı ən kiçik detalları dəqiqəsinə qədər xatırlayır. Hər dəfə görüşəndə ondan daha çox müharibə xatirələrindən danışmasını xahiş edirəm. Çünki hər şeyi - səhvləri, düzləri, savaş zamanı kimin nə etdiyini olduğu kimi danışması çox xoşuma gələn cəhətidir - azaltmadan, artırmadan olub-keçənləri söyləyir və mən də özüm üçün birinci Qarabağ savaşında niyə erməniləri məğlub edə bilməməyimizin səbəblərini yəqin edirəm...

Ermənilərin birinci Qarabağ savaşı zamanı ən çox çalışdığı məsələ Tərtəri də ələ keçirib, Gəncəni blokada vəziyyətinə salmaq olub. Pafossuz-filansız, ermənilərin bu planının qarşısını Sərdar Həmidov və onun rəhbərlik etdiyi özünümüdafiə batalyonunun döyüşçüləri alıb. Özünün etdiklərindən danışmağı o qədər də sevmir. Həmişə deyirdi ki, bizim hələ hünərdən danışmağımıza haqqımız çatmır, çünki Qarabağ işğaldadır... Ancaq onun hansı taktikalarla Tərtəri qorumasını mənə hazırda Tərtər Qarabağ Müharibəsi Əlilləri Cəmiyyətinin sədri olan Suliddin Yusifov danışıb. Ondan eşitdiyim təkcə bir faktı demək kifayətdir. Sitat: "Sərdar Həmidov Tərtərin hər iki çıxışına iki əli avtomatlı adam qoymuşdu və onlara tapşırmışdı ki, əli silah tutan kimsə rayondan çıxmaq istəsə, yerindəcə onu güllələsinlər. Hamı qalıb sonadək döyüşdü... Bütün döyüşlərdə şəxsən özü iştirak edirdi, yalnız prezidentə məlumat verirdi, hansısa xəyanətkarların Tərtərdə təxribatlar törətməməsi üçün kimsənin döyüş əmrləri verməsinə imkan yaratmırdı. Bu məqsədlə rayona göndərilənləri dərhal Tərtərdən qovurdu, deyirdi ki, bir də bura gəlsən, səni güllələyəcəm. Əsgərin qədrini bilirdi, alnından öpürdü, hər döyüşdən sonra şücaət göstərən əsgərləri mükafatlandırırdı. Beləcə, biz doğma rayonumuzu qoruya bildik"...

Tərtər döyüşçüləri iki il öncə Sərdar Həmidova Milli Qəhrəman adı verilməsi üçün prezidentə müraciət də ünvanlayıblar...

Amma bu gün ona nə ad lazımdır, nə də digər nələrsə... Bu gün Sərdar Həmidov canı ilə əlləşir. Sağlamlığını döyüşlərdə aldığı güllə yaralarından qismən itirmişdi, olan qalan canı da 1996-2004-cü illərdə həbsxanada saxlanılması üzündən itirdi. Əslində, o, türmədə saxlanıldığının səbəbini özü də başa düşə bilmədiyini deyir hər dəfə bu mövzuda söhbət düşəndə: "Mən heç bir siyasi səhv etməmişdim, İsgəndər Həmidovun qisasını həm də məndən aldılar. Guya mən - silahsız, işdən çıxarılmış bir adam o vaxtkı prokuror Eldar Həsənova sui-qəsd hazırlayırmışam. Belə bir fikri olanın zatına lənət... Boşuna canım getdi türmədə"...

Nə isə.. Daha olan olub, keçən keçib. İndi onun vətən uğrunda fəda etdiyi canını qorumaq bizlərə, dövlətimizə qalır...

O, hazırda 1 saylı Mərkəzi Kliniki Xəstəxananın reanimasiya şöbəsindədir. Çox ağır durumdadır. Xüsusi müalicəyə ehtiyacı var. Bəlkə də çox təcili xaricə aparılmasına ehtiyac var, sonra gec ola bilər. Hər bir halda, dövlətimiz, ölkə rəhbərliyi vətən uğrunda böyük işlər görmüş bu kişinin sağalması üçün gərəkəni etməlidir və məncə bütün bunlar ediləcək. Hər halda, ölkə rəhbərliyinin bu kimi - oxşar situasiyalarda dərhal hərəkətə keçməsinin hər birimiz şahidi olmuşuq.

Yastığın yüngül olsun, Sərdar bəy. Tez qalx ayağa, danışdığımız kimi, yazda quşəppəyi çıxanda Tərtərə getməliyik...

Yeni Müsavat
N 47 (6368) 29 fevral 2016



# Biz niyə Türkiyə ola bilmirik?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ötən bir həftədə bir daha əmin oldum ki, Türkiyədən öyrənməli olduğumuz çox şeylər var. Avropa, ya Amerika nümunəsindən bəhs olunanda dodaq büzüb də, onların bizimçün qəbulolunmaz tərəflərindən bəhs edənlərədir sözümüz: bəs, Türkiyə nümunəsinə nə deyirsiniz? Bir millət, iki dövlətik də, buyurun, yaxşı nə varsa, tətbiq edin, yolundan tutmuş, hasarsız dənizinə qədər, hər şey göz oxşayır.**

Bizim şəhər mərkəzlərində kitab evləri ləğv edilib dönərxana açıldı, Türkiyənin hər avtodayanacağında belə kitab, qəzet satışı məntəqələri 24 saat işləyir...

Türkiyə səfərindən bir gün öncə Bakının "Sovetski" məhəlləsində sökülən tariximizdən yazmışdım - Abbas Mirzə Şərifzadənin evindən, kökündən qoparılan, yaşı əsri adlamış tut ağaclarından, zəlzələnin, qar-yağışın yüz illərlə yerindən tərpədə bilmədiyi tikililərin buldozer qabağına verilməsindən.

Türkiyənin İzmir şəhərində bir ünvana apardılar. Üstü qamışla örtülmüş, yeri palçıqla suvanmış, sobası belə gildən hörülmüş daxmalar var idi burada. Bir tərəfində də arxeoloji qazıntılar aparılıbmış, əslində o qədər də təəccüblü olmayan daş təməlli evlərin tikildiyi güman edilən ərazi gördük. Ancaq oralardan tapılan eksponatları, hətta küp qəbirlərdən tapılmış insan qalıqlarını, kəllə sümüyünü yaxınlıqdakı qapalı muzeydə nümayiş etdirirlər. Bələdçimiz dedi ki, bura hər gün yüzlərlə insan gəlir - şəhərin kənarında olmasına baxmayaraq...

Kocaeli vilayətinin İzmit şəhərində də heyrətamiz bir faktla qarşılaşdım. 19-cu əsrdə tikilmiş dördmərtəbəli evə apardılar. Məlum oldu ki, bu ev vaxtilə İzmitin valisinə məxsus olub. Bir neçə il əvvəl bələdiyyə evin yanmış qalıqlarını hazırkı sahibindən böyük paranın müqabilində alıb, onqat artıq pul müqabilində təmir etdirib və... əvvəlki görkəminə qaytarandan sonra xalqın ixtiyarına verib. Öyrəndik ki, həmin bu keçmiş rəhbər zamanında gözəl yollar çəkdirib, yol kənarlarına çinar ağacları əkdiribmiş. İndiki rəhbərlik də məhz bu xeyirxahlığa qarşılıq verib. Düşünün, bizdə belə nümunələr nə qədərdir? Ümumiyyətlə, varmı?

Türkiyə insanı bir fərqli biçimdədir. Bəlkə də bu, dövlət-vətəndaş münasibətlərinin məntiqi nəticəsidir elə. Bəlkə də biz vətənpərvərlikdən daha çox danışdığımız halda, əslində daha çox Vətəndən uzaqlaşmışıq. Bəli, biz bir millət, iki dövlətik, bənzərliyimiz az deyil, lakin fərqli xüsusiyyətlərimiz də çoxdur.

Bu günlərdə Türkiyə ən ağır günlərini yaşayır, dörd tərəfi düşmənə çevrilib. Elə on gün əvvəl Ankarada dəhşətli terror hadisəsi törədildi, ölkə hər gün şəhid verir. Ancaq məmləkət insanında qətiyyən panika yoxdur, hamı eyni vaxtda lənət oxuyur. Belə ayaqda olan məmləkət heç vaxt məğlub olmaz, İnşallah!

Taksi sürücüsü ilə söhbət etdik, dövlətə sevigisindən danışdı, sərbəst şəkildə təmsil olunduğu partiyanın - daha çox CHP-lilərlə rastlaşdıq - baxışlarını bölüşdü, iqtidarı tənqid elədi, çəkinmədən, "görəsən, bunlar kimdir məndən söz almaq istəyirlər" şübhəsinə düşmədən. Taksi sürücüsü e... Bizdə taksi sürücüsünə ikinci sualı verəndə "sən Allah məni bu işlərə qatma, sonra başım ağrıyar" deyib neytrala çəkilir. Hələ başqalarını demirəm. Bax, biz yaxamızı kənara çəkdiyimizdəndir ki, başımızdan bəlalar əskik olmur, problemlərimiz tükənmir, devalvasiya şokundan ayıla bilmirik...

Türkiyədə devalvasiya bizdən qabaq olub, ancaq bank borcuna görə özünü asan, yandıran, şoka düşən bizlərdən fərqli olaraq, orda həyat öz axarı ilə gedib və davam edir. Bu gün də hər gün kurs dəyişir, İzmirdə dolların lirəyə nisbəti 2.95 idisə, İstanbulda 2.88 idi, kimsə gəlib demirdi sən niyə fərqli kursla satırsan. Heç dükan-bazarlardakı qiymətlərin arasındakı fərqə görə də hansısa nazirlik reydlər aparmırdı. Çünki dövlət və cəmiyyət anlayır ki, qiymətləri bazar tənzimrləyir, nazirlik yox.

Hələ bir müraciət formalarına baxın, bu, ona "abi" deyir, o biri digərinə "abla". Bu, yolda da belədir, parlamentdə də... Bir tədbirdən sonra bələdiyyə sədri ilə birgə yol kedəsi olduq. Bələdiyyə başqanı küçəni süpürən süpürgəçiyə salam verib "yorulmayasan" deyib keçdi. Bizim insanlarla söyüşlə danışan, sonra da "qohumlarımdır" deyən icra başçısının vətəndaşa münasibətini xatırlayıb utandım o an. Utanmalı şeylər çoxdur, lap çox. Kaş ki, hər Türkiyədə istirahətə gedən, orda mülklər alan məmurlarımız gördüklərini Azərbaycanda tətbiq edəydilər. Kaş ki...

# Rusiya Azərbaycan prezidentinin Vaşinqton səfərini də əngəlləyə bilərmi?

## Ekspertin maraqlı açıqlamaları var...

**Azərbaycan prezidenti İlham Əliyevin martın sonunda Vaşinqtonda təşkil ediləcək nüvə təhlükəsizliyi sammitində iştirakı təsdiqlənib. ABŞ-ın Bakıdakı səfirliyindən bildirilib ki, hazırda Bakı və Vaşinqton münasibətləri daha müsbət və qarşılıqlı faydalı etməyin üzərində işləyir.**

Bəzi ekspertlərin ehtimallarına görə, Azərbaycanın ABŞ-la münasibətlərinin istiləşməsi Rusiyanı narahat edir və bu səbəbdən Moskva üçün Azərbaycan prezidentinin Vaşinqtona səfəri heç də arzulanan deyil. Ona görə də Rusiya bu səfərin gerçəkləşməsinə mane olmaq istəyinə düşə bilər.

Politoloq Natiq Miri isə hesab edir ki, yeni yaranmış geosiyasi situasiyada Azərbaycanla ABŞ arasında olan problemləri çözmək və münasibətləri yeni müsbət məcraya daşımaq üçün mütləq mənada hər iki tərəfdən konkret addımlar atılması zərurəti yaranıb: "Bu zərurəti şübhəsiz ki, rəsmi Bakı da dəqiq bilir. Ona görə hər iki ölkənin fevral ayında bu istəkdə olduğu sezildi. ABŞ Azərbaycanda siyasi və iqtisadi islahatların aparılmasını istəyir. Azərbaycan prezidenti də son aylarda iqtisadi islahatlar istiqamətində bir sıra addımlar atıb və proses gedir. Artıq bunun nəticəsidir ki, ABŞ bu günlərdə bəyan etdi ki, iqtisadi islahatların uğurlu həyata keçirilməsində Azərbaycanla birgə işləməyə hazırdır. Siyasi islahatlara da ciddi şəkildə start verilsə, ABŞ-la münasibətlər ciddi şəkildə düzələcək. Prezidentin ABŞ səfərinə qədər Azərbaycanda siyasi islahatlar istiqamətində müsbət tendensiyanın təməli atılmalıdır. Məsələn, bir çox siyasi məhbus sayılan məhbusların azad olunması müsbət tendensiya kimi qəbul edilə bilər. Təbii ki, Rusiya, eyni zamanda hətta İran Azərbaycanın ABŞ-la, bütövlükdə Qərb dünyası ilə strateji əlaqələr qurmasında, yüksək səviyyədə strateji müttəfiqlik səviyyəsinə qalxmasında maraqlı deyil. Rusiya daha çox Azərbaycanın öz nüvəsi ətrafında, Rusiyanın patronajlıq etdiyi orbitdə olmasını istəyir. Ona görə də zaman-zaman Azərbaycanın ABŞ-a sıx yaxınlaşmasına əngəllər yaradıb. Ancaq Rusiyanın prezident İlham Əliyevin Vaşinqtona səfərinin qarşısını almaq istəyinə düşəcəyinə inanmıram. Çünki bu gün Rusiyanın özünün ABŞ-la münasibətlərin yenidən müsbət məcraya düşməsinə böyük ehtiyacı yaranıb".



Ekspertin fikrincə, belə bir vəziyyətdə Moskva isti münasibətlərdə olduğu Azərbaycan prezidentinin ABŞ-a səfərinə mane olmaq fikrinə düşməz: "Hətta mən deyərdim ki, İlham Əliyevin ABŞ-a getməsində maraqlı ola bilər. Rusiya lideri bu gün Türkiyə iqtidarı ilə birbaşa təmasa girmir. Suriyada atəşkəs razılaşması ilə bağlı Putin Türkiyədən başqa digər bütün region ölkələri ilə danışdı. İstisna deyil ki, Putin Türkiyə rəhbərliyinə çatdırılmalı olan hansısa fikirlərini İlham Əliyevlə fevralın 25-də telefon danışığında dilə gətirib. Ola bilsin ki, Azərbaycan prezidenti Putinlə danışıqdan sonra bəzi məqamları Türkiyə rəhbərliyi ilə müzakirə edib. Ona görə də fevralın 26-da Putinin İlham Əliyevə yenidən zəng etməsinə ehtiyac duyulub. Azərbaycan prezidentinin münasibətlərin tənzimlənməsində vasitəçi olmağa hazır olduğunu hələ bir müddət öncə bəyan etməsini xatırlayın. Demək istəyirəm ki, hazırda Azərbaycanın ABŞ və Türkiyə ilə normal münasibətlərdə olması müəyyən mənada Rusiyanın nəinki zərərinə, əksinə, xeyirinədir. Bu baxımdan düşünürəm ki, Moskva Azərbaycan prezidentinin Vaşinqtona səfərinə, münasibətlərin normallaşmasına əngəl yaratmayacaq".

❑ **Etibar SEYİDAĞA**

# "Ən çox təklif verən partiya sədri mənəm"

## **Sülhəddin Əkbər:** "Dövlət başçısı islahatlar yolunda addımlar atacaqsa, xalqdan da, demokratik qüvvələrdən də dəstək görəcək..."

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər Azərbaycanda və regionda cərəyan edən proseslər və digər aktual mövzularla bağlı çoxsaylı suallarımızı cavablandırıb. Onunla müsahibənin sonuncu hissəsini təqdim edirik:**

(əvvəli ötən saylarımızda)

**- Azərbaycan da Pentaqonla və xüsusi xidmətlərlə çox sıx işbirliyindədir. Buna nə deyərdiniz?**

- Yəni siz mənim dediyimi təkzib eləmirsiniz, əslində qüvvətləndirirsiniz.

**- Ölkəmiz sistem böhranından çıxa biləcəkmi? Müxalifət böhrandan çıxa biləcəkmi? Bunlar nə dərəcədə bir-biri ilə bağlıdır? Dediniz ki, müxalifətin güclənməsində hakimiyyət maraqlı olmalıdır. Müxalifət özü niyə təşəbbüs göstərmir? Sanki hamı oturub nəyisə gözləyir.**

- Burada mənə elə gəlir, yeni şərait yaranır. Yeni siyasi-iqtisadi landşafta uyğun qüvvələr ortaya çıxacaq. Azərbaycan müxalifətinin burada nə aparıcı rol oynayacağını, nə də hərəkətverici qüvvə olacağını mən görə bilmirəm. Bəli, prosesdə hansısa formada iştirak edə bilər. O da şərtidir, sizin dediyiniz kimi, təşəbbüskarlıq göstərə bilsə. Əgər müxalifət vəziyyəti düzgün qiymətləndirib ondan tələb olunan addımları atsa, yüksək siyasi yetkinlik, siyasi mədəniyyət göstərib enerjilərini daxili mübarizəyə verməsə, ölkəni düşünsələr bu dəyişikliklər prosesində müəyyən bir seqmenti tuta bilərlər. Amma bir daha təkrar edirəm ki, prosesdə aparıcı rol oynayacağı görünmür. Bu, nəzəri cəhətdən bir halda mümkündür ki, real aparıcı rol oynayası qüvvələr meydana çıxmaqdan çəkinsinlər, vasitəli oyunda iştirak eləmək qərarı versinlər və sadəcə, hansısa liderə və müxalif siyasi qüvvəyə oynasınlar.

**- Ölkə prezidenti son iki ayda həm Nazirlər Kabinetinin iclaslarında, həm bölgələrə səfərlərində, həm də Davosda və digər xarici səfərlərində etdiyi çıxışların mərkəzində dayanan bir fikir var - islahatlar üçün zaman yetişib. Siz də bizimlə söhbətimizdə təhlil elədiniz ki, dövlət başçısı islahatlara start verdi, amma sonra nəyə görəsə dayandı. İndi bizdəki məlumat isə bundan ibarətdir ki, islahatlar üçün müəyyən iş gedir, kadr bazası formalaşdırılır və s. İslahat prosesi yenidən başlasa və dediyiniz təhlildəki kimi xalqın içindən çıxan kadrlardan, müxalifətin də potensialından istifadə eləmə qərarı versə, şəxsən sizin mövqeyiniz necə olar? Partiyadan kadrlar vermək, prosesdə şəxsən iştirak eləmək kimi məsələləri heç düşünmüsünüzmü?**



- Nəinki düşünmüşəm, hətta düşündüklərimi təkliflər şəklində yazılı sənəd halına gətirib təqdim eləmişəm. Məncə, Azərbaycanda siyasi partiyalar içərisində ən çox təklif verən partiya bizim partiyadır, ən çox təklif verən partiya sədri də mənəm.

**- Yəni siz o qeyd etdiyimiz prosesə sıcaq baxırsınız?**

- Siz məni neçə illərdir tanıyırsınız. Sizin də yaxşı tanıdığınız Oqtay Daşoğuz var idi. Naxçıvana gəlirdi və deyirdi ki, Sülhəddin Əkbər ekspert kimi danışmır, dövlət xadimi kimi danışır. Bilirsiniz ki, mən özümü tərifləməyi xoşlamıram. İndi özüm haqqında bu fikri xatırlatdığım üçün də üzr istəyirəm. Sadəcə ona görə bunu xatırlatdım ki, mənim ortaya qoyduğum mövqenin dövlətimizin maraqları üçün edildiyini ifadə edim. Tam səmimi deyirəm, əgər dövlət başçısı islahat yolunda addımlar atacaqsa, Azərbaycan xalqından da, demokratik qüvvələrdən də dəstək görəcək. Ölkəni sevən, bu ölkədə demokratik dəyişikliklər istəyən bütün qüvvələrdən, şəxslərdən dəstək alacaq.

**- O cümlədən, şəxsən sizdən?**

- Bəli. Şəxsən məndən də dəstək alacaq.

❑ **Hazırladı: Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016

# Səddam Hüseynin zindanında yatmış türkməndən "Yeni Müsavat"a ilginc açıqlamalar

## Mahmud Qəssaboğlu: "Qarabağın işğalda qalması bütün dünya türklərinin üz qarası, ayıbıdır"

**"Baxış bucağı"**

**Ötən həftə Türkiyədə səfərdə olan İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Azərbaycan təmsilçiləri qardaş ölkədə çoxsaylı görüşlər keçirdilər. Bu görüşlərdən biri də Azərbaycan türkləri ilə qan qohumluğu olan, elə bizim özümüz olan türkmənlərin təmsilçiləri ilə - Ankaradakı İraq Türkləri Mədəniyyət və Həmrəylik Dərnəyində baş tutdu.**



Olduqca səmimi atmosferdə keçən görüşdə Türk dünyasının dərdlərindən danışıldı, başına od ələnən türkmənlərin durumundan bəhs edildi, söz yerini musiqiyə verdi, türkmən mahnısı iştirakçıları kövrəltdi. Görüşdən sonra imkan tapıb İraq Türkləri Mədəniyyət və Həmrəylik Dərnəyinin Ankara şöbəsinin başqanı Mahmud Qəssaboğludan "Yeni Müsavat" üçün özəl müsahibə aldıq.

Zahirən çox sakit adam təsiri bağışlayan bu insanın başına olmazın fəlakətlər gəlibmiş, İran-İraq savaşının iştirakçısı olmasının "mükafatı" kimi onu Səddam rejimi zindana salıb, ağır işgəncələr veribmiş. Deyir ki, olanlara rəğmən, bu gün ürəyi daha çox Türk dünyasının fəlakətlərdən qurtulması naminə döyünür.

***- Mahmud bəy, rəhbərlik etdiyiniz təşkilat nə zamandan fəaliyyət göstərir?***

- İraq Türkləri Mədəniyyət və Həmrtəylik Dərnəyi 1959-cu ildə qurulub. Həmin il Kərkükdə qətliam olub. Öncə dərnəyin yaradılması Türkiyə dövləti tərəfindən yasaq edilmişdi. Ancaq İraqdakı qətliamın Türkiyə ictimaiyyətinə çatdırılmasına qadağa qoyulur, tapşırılıb ki, qəti şəkildə orda qətliam oldu deməyin, qarşıdurma oldu, deyin. Ondan sonra eyni hökumətin qərarı ilə bu dərnəyi bizim üçün qurublar. İraqdan gəlmiş 3 türkmən, 4 nəfər də burdakı vətənsevər, millətçi qardaşımız bu dərnəyi qurublar. Mən 1986-cı ildən Türkiyədəyəm, 2005-dən bəri isə dərnəyin başqanıyam.

***- Bəs, ona qədər fəaliyyətiniz nədən ibarət olub?***

- Mən İran-İraq savaşının iştirakçısıyam. 1 il İrana qarşı döyüşdüm. Mən təlimçi çavuşam. Çox ağır dönəm idi. Bir anlıq təsəvvür edin, müsəlman müsəlmanı qırırdı, döyüşdə onlar da "Allah-Allah" deyirdi, biz də.

***- İndi siz İrana sərbəst gedə bilirsinizmi, yoxsa yollarınız qapadılıb?***

- Yox, qapadılmayıb, tam sərbəst gedib-gələ bilirəm.

***- Mahmud bəy, İraq türkmənlərinin indiki durumu, təbii ki, arzuolunmazdır. Amma əvvəlki dönəmlər də türkmənlər üçün ağrılı-acılı tarix kimi yaddaşlarda qalıb. Səddam Hüseyn zamanı ilə bağlı nələri xatırlayırsınız?***

### "İran-İraq savaşında müsəlman müsəlmanı qırırdı, döyüşdə onlar da "Allah-Allah" deyirdi, biz də"

- Səddam mənim ailəmi edam etdi. Dayım oğlunu elektrikə verib qətlə yetirdilər. 1980-ci ildə özüm Səddamın həbsxanasına salındım. Mən Səddamın işgəncəxanasında Allahı gördüm.

***- Necə yəni?***

- Mənə ittiham elan etdilər, dedim suçlu deyiləm, Allaha and olsun ki, mənim günahım yoxdur. Bir ağac parçasını gətirdilər, üstündəki bayraqda



"Ya Allah" yazılmışdı. Dedilər bax, sənin Allahın danışmır. Bundan sonra başladılar işgəncəyə, elektrik verməyə. Ərəb bilirsiniz necədir? Ərəb halvadan Allah düzəldər, ac olduğu zaman yeyər. Onlar hər cür pislik edərlər. Bir ay işgəncə gördüm, sonra ittiham sübuta yetirilmədi deyə, sərbəst buraxmalı oldular.

***- Dayınız oğlunun günahı nə idi?***

- O da bizim kimi Turana inanmışdı. Deyirdi bütün dünya türkləri bir olacaq, Turan qurulacaq.

***- Türk dünyasının indiki durumu nə deyir, Turan qurulacaqmı?***

- Sizə bir şey deyim, istər Azərbaycan türkləri, istər dünyadakı türklər eynidir, ancaq Anadolu türkləri fərqlidir. Siz 20 ildir müstəqil dövlətsiniz. Amma Türkiyə tarixin, nəhəng dövlətlərin davamıdır. Türkiyənin yerinə keçməsi üçün Azərbaycana 300 il lazımdır.

Biz mahnıları, türküləri, şeirləri, tarixçiləri bir tərəfə qoyacağıq. Qoy o məsələlərlə başqaları məşğul olsun. Biz qafamızı belə yoracağıq: Azərbaycan bundan sonra başqa hadisələrin olmaması üçün nə edəcək? Hətta 50-100 illik sistem quracağıq, alternativlər olacaq bunlar. Üstəlik, texnologiyaya, elmə önəm verəcəyik, tarixi də unutmayacağıq.

***- Türkmən bacı-qardaşlarımız İraq və Suriyada fəlakətlər içərisindədir. Təbii ki, bu durumda olan insanlarda Qarabağın işğalı barədə soruşmaq bəlkə də yersizdir. Amma hər halda sizin şəxsi fikriniz maraqlıdır. Qarabağın işğalı faktı sizin aləminizdə nə deməkdir, bu məsələni necə çözmək olar?***



### "Dayım oğlunu elektrikə verib qətlə yetirdilər"

- Qarabağın işğalda qalması bütün dünya türklərinin üz qarası, ayıbıdır. Başda da Türkiyənin. Bu, nə deməkdir? Zamanında mən özüm də Qarabağda döyüşənlərə tikiş fabrikimdə 350 uniforma tikib göndərdim. Biz hər şeyi açıq demək istəmirik. Ancaq Qarabağın yanında duran həmişə bozqurdlar olub. Mən, mənim təmsil olunduğum toplum sizin yanınızdadır. Ancaq bu gün türk toplumunun özünün də dərdlərinə laqeydliyi var, Qarabağın işğalına da.

***- Amma demədiniz ki, Qarabağın xilas yolu nədədir...***

- Azərbaycanın iqtisadiyyatı güclü olarsa, sabah ermənilər gəlib deyər biz Azərbaycan vətəndaşı olmaq istəyirik. Yol budur. Azərbaycan öncə bir sənaye ölkəsi olacaq. Nefti var, qazı var. Daha nə istəyirsən? 20 ilimiz boşa getdi. Qarabağ məsələsindən hər kəs öz maraqları üçün istifadə edir, türkiyədəkilər də, digərləri də. Nə qədər Qarabağ deyib dınqır-dınqır çalmaq olar? Torpaqları alın o zaman, məsələ bitsin! Başqa bir yolla alın, lap ermənilərə pul ver, silahını, işğal etdiyi torpağı satsın. Mən sadə məntiqlə belə deyirəm.

***- İŞİD-lə bağlı nə deyə bilərsiniz?***

- İŞİD-də dünyanın hər yerindən gəlmiş, psixologiyası pozulmuş insanlar toplaşıb.

***- Mahmud bəy, türkmənlər üçün Türkiyənin önəmi nə qədərdir?***

### "Hər hansı bir məsələdə Türkiyə sənin arxanda olmasa, yox olarsan"

- Hər hansı bir məsələdə Türkiyə sənin arxanda olmasa, yox olarsan. Özəlliklə də Suriya türkmənləri ilə bağlı. Ancaq bu da var ki, nə oldu qəfildən "Suriya türkmənləri" deməyə başladınız, niyə əvvəllər demirdiniz? Dəmədiniz!!! Bir dövlət mənim kimi danışa bilməz, yalan danışmaz. Mən bu gün yalan söylərəm, sabah deyərəm unutdum. Ancaq bu, dövlətə yaraşmaz! Bizi kürdlərə, suriyalılara yem edirlər. Ayıbdır axı, belə ana vətən olarmı?!

***- Çox təəccünlüdür, Türkiyə sizə qucaq acsa da, türkmən davası aparıb böyük dövlətlərlə üz-üzə qalsa da, yenə narazısınız...***

- Təbii ki, narazıyam. Türkiyənin etdiklərini də unutmuram. Amma nöqsanları da deyirəm. Mən heç nədən çəkinmirəm. Burda çox rahatam, iş adamıyam, sərbəstəm, demək olar ki, kralam, imperatoram. Amma söhbət məndən getmir, bütöv bir türkmən toplumunun taleyindən gedir. İraqda bizi kürdlərə təslim etdilər, Tələbaniyə... Belə şey olarmı?!

***- Bu gün Suriyada türkmənlər savaş içindədir...***

- Suriya türkmənlərə lap ağır durumdadırlar. Deyirlər ki, türkmənlər Türkmən dağında savaşırlar, yoxdur elə bir şey. Rusiyaya qarşı necə savaşacağıq. Bunlara inanmayın, havaya beş nəfər atəş açırsa, bu, o demək deyil ki, türkmənlər müharibə aparır.

***- Qarşı tərəfdəki düşmən güclüdür deyirsiniz. Bəs, siz xilas yolunu necə görürsünüz? Bu vəziyyətdən türkmənləri necə qurtarmaq olar?***

- Ümumən türklüyün xilas yolu ayaqda olması, güclü iqtisadiyyata sahiblənməsi, elmini inkişaf etdirməsindədir. Bunlara sahib olarıqsa, hər kəs gəlib bizə yalvarar.

***- Bu, gələcəyə yönəlik strategiyadır. Bəs, bu gün ağır durumda olan türkmənləri necə xilas etməli?***

- Türkiyə türkmənlərə qucaq açmalıdır.

***- Bəs, Türkiyənin Suriyaya, türkmənləri xilas etməsi üçün ordu yeritməsini istərdinizmi?***

- Yox, qardaşım, orduya nə ehtiyac var? Türkiyə mənim kimi min nəfər dinc insanı ora göndərəcək, onlar da gedib türkmənlərin içində çalışacaq. Türkmən dağında nə savaş? Gedənləri də tanıyıram. Şou üçün gedirlər. Facebbook çıxdı, mərdlik bitdi. Mənim facebook-um yoxdur. Alır "Kalaşnikov"u, ta-ta-ta-ta, sonra da "mən rusu vurdum" deyib fotolarını paylaşır. Ayıbdır axı!

***- Yəni deyirsiniz bu gün Türkmən dağında müharibə getmir?***

- Nə müharibə? Orada bir neçə insan həlak oldu. Əslində o yazıqları yem etdik.

***- Bu gün bölgədə, alov içərisində qalmış türkmənlərin ümumi sayı nə qədərdir?***

- Dəqiq məlumat yoxdur. Amma türkmənlər Lazqiya, Hama, Homs, Hələb, Şamın quzeyi, Beyruta yaxın yerlərdə yaşayırlar. Suriyadakı türklər üç mərhələdə oraya yerləşib: 1. Osmanlıdan öncə; 2. Osmanlı zamanında; 3. Burdan ticarət üçün ora gedənlər. Beyrutda da türk çoxdur. 20 il əvvələ qədər baş nazir türk əsilli idi. Bu gün türkmənlər çox ağır durumdadır. Öncə biz özümüz onlara sahib çıxmalıyıq, sonra dünyadan tələb etməliyik...

Və...Təşkilat sədri bizi Kərkük dolmasına qonaq etdi. "Beşbacı dolması" da demək olar. Özü də başqan qazandan yeməyi öz əlləri ilə çəkdi, heç bir kompleks duymadan, "kənardan baxan nə deyər" kimi fikirləri düşünmədən...

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

# "Köçəri" havası



**Zamin HACI**
zaminhaci@gmail.com

**Azərbaycan öz vətəndaşlarının gününə düşübdür, ancaq bilmirəm buna sevinmək olar, ya yox. Bir vaxtlar, elə indinin özündə də zəhmətkeşlərimizin bankdan normal faizlə kredit alması, həmçinin, kreditlə hansısa əşya, ev, maşın əldə eləməsi çətin idi. Min dənə sənəd istəyirdilər. Bəzi dükanlar isə hətta "müəllimə, jurnalistə, polisə kredit vermirik" kimi ayrıseçkilik edirdilər. İndi isə beynəlxalq maliyyə agentliyi Fitch Azərbaycanın reytinqini iqtisadçılar arasında "zibil səviyyə" adlanan BB+ dərəcəsinə salmışdır. Bu, qısaca o deməkdir ki, bu dövlətin qiymətli kağızlarına investisiya qoymaq zərərə düşməkdir, həmçinin, kim Azərbaycana kredit versə, yüksək faizlə versin, çünki respublika neft pullarından asılılıq üzündən pis günə düşübdür, verilən kreditlərin batmaq ehtimalı yüksəkdir.**

Bütün bu qanqaraldıcı, düşmən dəyirmanına su axıdan xəbərləri Blumberq agentliyi dünyaya yaymışdır, kül olsun o agentliyin təpəsinə, inşallah, Əflatun müəllim sizi reket agentliklər sırasına salar, görərsiniz! Yox bir, zulumberq... Yeri gəlmişkən, mən bilmirəm niyə Rəşad Məcidi əfv komissiyasına saldılar, ancaq Əflatun müəllim qıraqda qaldı, halbuki, Əflatun müəllimin adı əfv sözünə daha çox uyğun gəlirdi. Ümid edirəm belə səhvlər tezliklə aradan qalxacaqdır.

Məncə bu kədərli durum maşın ötüşdürmə, manıs güləşdirmə, muğam ulaşdırma yarışlarına sponsorluq edən gənc və perspektivli respublikamıza heç yaraşmır. Özü də biz xəritədə qartala oxşayırıq!

Devalvasiyanın, manatın ölməsinin iqtisadi təsirləri təkcə dükanlarda hiss edilmir. Əgər sosioloji müşahidə aparsaq, iqtidar cinahında son iki ayda ciddi itkilər baş vermişdir. Bir tanınmış ailə üzvü, bir xalq şairi, bir xalq artisti ölmüşdür. Xalq artistinin zəhərlənib öldürülməsi ehtimalları dolaşır. O cümlədən, iki hakimiyyət jurnalisti ölüb, bunların ölməsi isə yetərincə müəmmalı şəraitdə baş vermişdir: birini deyilənə görə küçədə vurub öldürdülər, o biri isə itkin düşdü, uzun zaman sonra meyiti dənizdən tapıldı. Uzun zaman AzTV-dən gözünü qırpmadan yalan oxumaq ustası kimi tanınan diktor isə ölümcül durumda xəstəxanaya düşübdür. Xatırladım ki, belə hadisələr adətən müxalifyönümlü jurnalistlərin başına gəlirdi - neft pulu çox olan vaxtlarda.

Ancaq çox kədərlənib burnumuzu yerə sürtməyimiz də düzgün deyildir, çünki millət ikiüzlü olur, bir üzü mısmırığını sallayanda o biri üzü gülüşlə parlamalıdır. Səbəb də vardır: YUNESKO-ya müraciət eləmişik, 2017-ci ildə, inşallah, "Yallı" və "Köçəri" rəqslərimizi qeyri-maddi mədəni irs siyahısına salacağıq. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor və Kvant Fizikası İnstitutu hazırda bu işlə ciddi məşğuldur, sən demə, alçaq ermənilər arada "Köçəri" rəqsimizi çırpışdırmaq istəyirmiş. Doğrudan da çox həyasız tayfadır, bizə sataşmaq üçün "köçəri" deyirlər, başqa yandan iddia edirlər "Köçəri" rəqsi bunlarındır. Üstəlik, bu rəqsin hərəkət formalarından da aşkar görünür ki, bu ancaq bizim rəqs ola bilər, çünki oynayanlar əl-ələ tutuşub milli birlik nümayiş etdirirlər.

Ümumən YUNESKO-nun həmin qeyri-maddi mədəni irs (ya da qeyri-mədəni maddi irs - açığı, hələ də bunları qarışdırıram, prinsipcə, böyük fərqi yoxdur) siyahısına indiyədək Azərbaycandan düşən nemətlərimiz isə bunlardır: muğam, Novruz bayramı, aşıq sənəti, xalçaçılıq, tar ifaçılığı, Çövkən oyunu, kəlağayı və Lahıc misgərlik sənəti. Novruz bayramını öz adımıza yazdırandan sonra yaz daha tez gəlir, çiçəklər çox açır, Keçəlin başı da qabaqkına nisbətən parlaq olur. Çövkəni heç demirəm, millət hamısı bu dəqiqə at belində top qovalayır. İnşallah, "Köçəri"ni də rahatlayıb kitaba salandan sonra başqa milli-mədəni irsimizi YUNESKO-da qeydiyyata aldıracağıq. Bunlardan Məzahir müəllimin seçki attraksionunu, Zakir müəllimin prokuror fokuslarını, Xaləddin müəllimin Binəqədidəki süni təpəliklərini, repetitorluq, radar gizlətmə, büdcə əkişdirmə və sairə xalq sənətkarlığı örnəklərimizi qeyd edə bilərəm.

Ümid edirəm 2017-ci ilə qədər ermənilər bunları oğurlamazlar.

# Dəyişən şərtlər qaz intriqalarını yeni dönəmə daşıyır




## Bu gün Bakıda böyük güclərin həlledici sammiti keçirilir - sensasion gəlişmələr

### Azərbaycan-Qərb enerji əməkdaşlığı yüksək mərhələyə keçir; TANAP-ın ardınca TAP-ın da inşası başlanır; İranın da qoşula biləcəyi böyük enerji layihəsi Rusiyanın "ofsayd" statusunu möhkəmlədəcək; Putinin iki gündə Bakıya iki dəfə telefon açmasının daha bir motivi...

**Bu gün - fevralın 29-da Bakıda Cənub Qaz Dəhlizi (CQD) Məşvərət Şurasının II iclası keçiriləcək. Paytaxtımızdakı toplantıya layihədə iştirakçı ölkələrin rəsmiləri, həmçinin, CQD-yə siyasi sponsorluq edən dövlət və təşkilatların (ABŞ və Avropa Birliyi) rəsmilərinin qatılacağı gözlənilir.**

Xatırladaq ki, Xəzərdəki "Şahdəniz mərhələ-2" qazının 3500 km-lik kəmərlə Avropaya nəqlini nəzərdə tutan və qitənin, həmçinin, qardaş Türkiyənin Rusiyadan enerji asılılığını minimuma endirməyə hesablanmış CQD kəmərlər sisteminin 3 əsas seqmenti var: 1. Cənubi Qafqaz Boru Kəməri - CQBK (Azərbaycan və Gürcüstan ərazisindən keçən hazırkı CQBK yeni paralel boru kəməri vasitəsilə genişləndiriləcək); 2. TANAP (Trans-Anadolu Qaz Kəməri - təbii qazı Türkiyənin şərqindən qərb sərhədinə daşıyacaq, inşasına artıq başlanılıb); 3. TAP (Trans-Adriatik Boru Kəməri - qazı Türkiyənin qərbindən Yunanıstan və Albaniyadan keçməklə Avropa bazarına çatdıracaq).

Qaz nəqlinə 2017-ci ilin sonunda başlamaq nəzərdə tutulur. CQD ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək böyük bir layihə sayılır və ölkəmizin iqtisadi və siyasi müstəqilliyinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

***

Toplantı ərəfəsində diqqət çəkən geosiyasi əhəmiyyətli bir neçə mühüm faktı qeyd eləmək lazım gəlir. Onlardan biri Azərbaycanın energetika naziri Natiq Əliyevin ötən həftəsonu ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta ilə görüşüdür. Xəbər verildiyi kimi, görüşdə regional, Avropa və qlobal səviyyədə enerji təhlükəsizliyini təmin etmək məqsədilə ABŞ-ın etibarlı enerji istehsalçısı və təchizatçısı kimi Azərbaycanla əməkdaşlığı məsələləri müzakirə edilib.

Maraqlıdır ki, Əliyev və Sekuta Azərbaycan-İran enerji əməkdaşlığına dair də fikir mübadiləsi aparıblar. Səfir habelə ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın Bakıda keçiriləcək toplantı çərçivəsində Azərbaycana səfərindən bəhs edib, CQD layihəsinin gedişi ilə maraqlanıb, layihənin icrasının sürətləndirilməsinə kömək edəcək təkliflərin Məşvərət Şurasının iclasında müzakirəyə çıxarılmasını tövsiyə edib.

Natiq Əliyev isə layihə ilə bağlı işlərin qrafikə uyğun aparıldığını və Azərbaycanın öz öhdəliklərini yerinə yetirdiyini söyləyib. Daha sonra o, CQBK-nin genişlənməsi layihəsi üzrə işlərin Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca davam etdirildiyini diqqətə çatdırıb. Bəlli olub ki, indiyədək TANAP-ın inşası üzrə işlərin 20 faizindən çoxu yekunlaşıb. TANAP-ın davamı sayılan TAP layihəsi ilə bağlı tikinti işlərinə isə martda başlanması nəzərdə tutulur.

***

Daha bir mühüm detal: Natiq Əliyev TAP ətrafında müşahidə olunan çətinliklərdən söz açaraq ABŞ-ın bu məsələdə mövqeyini yüksək qiymətləndirib. Qeyd edib ki, CQD Məşvərət Şurasının II iclası bu layihələrin vaxtında yerinə yetirilməsinə və Azərbaycan qazının Avropaya çatdırılmasına lazımi dəstəyi təmin edəcək.

Göründüyü kimi, ABŞ-ın Rusiyadan yan keçən qaz layihələrinə diqqəti güclənib və onların vaxtında reallaşması üçün Vaşinqton hərəkətə keçmiş kimi görünür. Bunu Sekuta-Əliyev təmasından cəmi bir gün öncə ABŞ-ın nüfuzlu "Forbes" jurnalında sabiq amerikalı diplomat, Dövlət Departamentinin keçmiş əməkdaşı Adam Erelinin Türkiyə, Azərbaycan və Gürcüstanın ABŞ üçün geosiyasi, energetik və digər önəmindən bəhs edən məqaləsi də sübut edir.

Məqalədən sitat: "Rusiyanın sürətlə silahlandırdığı Ermənistan ABŞ-ın üç mühüm müttəfiqi ilə - Gürcüstan, Azərbaycan və Türkiyə ilə həmsərhəddir. Rusiya qüvvələri hazırda Gürcüstan ərazilərini işğal altında saxlayır. Azərbaycan daim Moskvanın şantajına məruz qalır və Rusiya enerjidaşıyıcılarının asılılığından Avropanı qurtarmaq üçün Bakı əsas elementdir." Bu da Bakı toplantısının önəminə dəlalət edən növbəti vacib detal hesab edilə bilər.

***

Digər önəmli məqam beynəlxalq sanksiyalar götürüldükdən sonra İranın CQD-yə qoşulmasının mümkünlüyü ilə bağlıdır. Sekuta-Əliyev görüşündəki mesajlardan da bəlli olur ki, Amerika artıq bunda maraqlıdır, çünki nəhəng qaz ehtiyatlarına malik, lakin Avropaya yönəlik yetərli və keyfiyyətli qaz kəmərləri sistemi olmayan İran CQD layihəsinə qoşulmaqla həm sonuncunun rentabelliyini, etibarlığını artırar, həm də dünya bazarında yeni qaz oyunçusu kimi öz layiqli dollar payını götürərdi. Yəni qarşılıqlı fayda və maraq məsələsi. Yeri gəlmişkən, rəsmi Tehran da layihəyə qoşulacağını istisna eləmir.

Qeyd edək ki, CQD kəmər sistemi elə layihələndirilib ki, gələcəkdə əlavə qazın nəqli üçün onun ötürücülük gücü ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər. Ehtimal eləmək olar ki, prezident İlham Əliyevin sonuncu İran sfərində bu mövzuya da toxunulub. Hər halda səfərdən dərhal sonra səfir Sekutanın Natiq Əliyevlə görüşüb İranla energetik əməkdaşlıq mövzusunda müzakirə aparması diqqətdən yayına bilməz.

***

Son gəlişmələr fonunda Moskvanın artan narahatlığı isə anlaşılandır. Elə təkcə Rusiya prezidenti Vladimir Putinin ötən həftə həmkarı İlham Əliyev Tehrandan qayıtdıqdan sonra ona iki gündə iki dəfə zəng etməsi özlüyündə az şey demir. Azərbaycan-Rusiya münasibətləri tarixində bu, ilk belə faktdır.

Özü də Putin ikinci dəfə Bakıya Əliyev-Sekuta görüşünün keçirildiyi gün telefon açıb və bu dəfə rəsmi məlumatlara görə, Suriya mövzusu yox, "iki ölkə arasında əməkdaşlığa dair aktual məsələlər, ilk növbədə də iqtisadi-ticari məsələlər müzakirə edilib".

Böyük ehtimalla, Kreml başçısı ikinci zəngi zamanı təhlükəsizlik məsələlərini müzakirə eləməklə yanaşı, hazırda Rusiyanı ən çox narahat edən strateji məsələlərlə əlaqədar Bakıya incə şəkildə bəzi mesajlarını da çatdırıb. Hər necə olmasa, sözügedən layihələr Rusiyanın Avropa energetik bazarlarında, - həm də İranın köməyi ilə, - sıxışdırılmasına hesablanıb.

O da diqqətçəkicidir ki, Putnin Bakı zənglərindən bir gün sonra İlham Əliyev İran prezidenti Həsən Ruhaniyə telefon açıb, Tehrana səfərinin nəticələrindən məmnun qaldığını bildirib və "qeyd edilib ki, iki ölkə arasında əməkdaşlıq əlaqələrinin yeni səhifəsi açılıb".

***

Rusiya üçün Azərbaycanla bağlı daha bir neqativ məqam Gürcüstanın Rusiyadan qaz asılılığına məhz Azərbaycan qazı hesabına son qoyulması ilə ilgilidir. İş ondadır ki, bu gün Gürcüstanın energetika naziri Kaxa Kaladze də Bakıda olacaq. Ölkəmizdə bir sıra rəsmi görüşlər keçirəcək nazir isə səfəröncəsi belə demişdi: "Biz "Şahdəniz" yatağından əlavə həcmdə qaz almaq üçün danışıqlarımızı davam etdiririk. Çox nikbinik və müzakirələrin müsbət nəticələnəcəyini düşünürük. Yalnız bundan sonra "Qazprom"la danışıqların aqibəti bilinəcək".

Siyasi analitiklərə görə və Kaladzenin özünün də bildirdiyi kimi, onun Bakı səfəri Tiflisin "Qazprom"dan əlavə qaz alıb Rusiyadan daha güclü asılılığa düşüb-düşməyəcəyi məsələsinə birdəfəlik aydınlıq gətirə bilər. Azərbaycanın (SOCAR-ın) belə bir asılılığa imkan verməyəcəyi proqnozlaşdırılır...

Və ən son detal: bu gün AŞPA prezidenti Pedro Aqramunt və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyası sədrinin müavini Federika Moqerinin də ölkəmizə gələcək. Bir sözlə, bu günlər bölgənin siyasi nəbzi Bakıda vuracaq, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın baş tutmayan səfərinin ardınca nəzər-diqqət yenidən ölkəmizə yönələcək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016

**Onu Azərbaycanda çətin ki, tanımayan tapılsın. Elə işğalçı Ermənistanda da onu gözəl tanıyır və xatırlayırlar. Bu, əlbəttə ki, ermənilərin işğalçı olduğunu İrəvanın özündə belə onların gözünün içinə baxaraq bəyan eləmiş Aureliya Qriqoriudur - Moldovanın sabiq ombudsmanı, tanınmış hüquq müdafiəçisi və hüquqşünas, Moldovanın İctimai Palatasının sədri, Azərbaycanın, daha doğrusu, haqqın böyük dostu!**

# Azərbaycanın böyük dostu ermənilərin iç üzünü açdı

## Aureliya Qruqoriu: "Ermənilərin vəhşi təbiəti və yalançılıqları..."

Xanım Qriqoriu Xocalı soyqırımının növbəti ildönümündə bir daha öz haqlı və sərt mövqeyini ortaya qoyub, xain millətin iç üzünü açıb. Bu yerdə onu da qeyd edək ki, moldovan hüquq müdafiəçisi bu mövqeyə görə nəinki bir neçə il öncə tədbirə qatılmaqdan ötrü getdiyi Ermənistanda, hətta öz vətəni Moldovada təqib edilib. İndi də erməni lobbisi ondan əl çəkmir, hədələyir, onu satın almağa çalışır.

Amma bu fədakar qadın öz mövqeyindən dönmür və dönməyə hazırlaşmır, çünki haqqı müdafiə etdiyinə əmindir. Onun bu dəfə "Trend"ə (rus) verdiyi müsahibə qənaətimizə şəkk-şübhə saxlamır. Müsahibədə o, Xocalı soyqırımı ilə bağlı ermənilərin həyasızcasına gerçəyi təhrif eləməsinə olduqca sərt münasibət bildirib.



"Ermənilər Xocalıdakı ağlagəlməz vəhşilikləri azərbaycanlıların cinayətləri kimi qələmə verməyə çalışırlar. Onlar ona görə belə edirlər ki, heç bir sağlam düşüncəli insanın cinayətkarlar üçün bircə bəraət sözü də tapmayacağını başa düşürlər" - deyib Qriqoriu.

Sabiq ombudsman daha sonra bildirib: "Bunu onların necə bir həyasızlıqla elədiyi adamı heyrətə gətirir. Vəhşi təbiətləri və yalançılıqları törətdikləri cinayətlərin bütün ağırlığını dərk etməyə və bu əməllərə görə peşman olmağa onlara imkan vermir".

Hüquq müdafiəçisinin sözlərinə görə, Xocalı soyqırımı məsələsində əsas bir şeyi ermənilər nəzərə almırlar: "Azərbaycan xalqı belə vəhşiliklərə qadir deyil. Ermənistan yox, məhz Azərbaycan dünyanın beş ən tolerant ölkəsindən biridir".

"Əvəzində bizə ermənilərin vəhşi mahiyyəti bəllidir. Öz qonşusunun 20%-lik ərazisini işğal edən də Ermənistandır, Azərbaycan yox. Bu, artıq BMT Təhlükəsizlik Şurasının, Avropa Birliyinin və Avropa Şurası Parlament Assambleyasının bir çox qətnamələrində əskini tapmış gerçəklikdir. Ona görə də dünya həqiqəti bilməlidir" - ardınca vurğulayıb Aureliya Qqiqoriu.

Azərbaycanın böyük dostu ermənilərin və onların havadarlarının Xocalıdakı cinayətkar hərəkətlərinin cəzasız saxlanmasını yolverilməz hesab edir. "Xocalıda cinayət törətmiş hər bir cinayətkar öz layiqli cəzasını almalıdır ki, ədalət bərpa edilsin və bir daha belə cinayət əməlləri baş verməsin. Cəzasız qalan istənilən cinayət gec-tez mütləq residiv verir" - əminliklə vurğulayıb xanım Qriqoriu.

"Genosid - xüsusilə ağır cinayətdir və o, istisna deyil. Böyük elm xadimi, publisist və mütəfəkkir Çezare Bekkariyenin dediyi kimi, "Cinayəti önləməyin ən yaxşı vasitələrindən biri cəzanın sərtliyində deyil, sərt cəzanın tətbiq ediləcəyinin qaçılmazlığındadır" - əlavə edib o.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dğn 26-a keçən gecə erməni-rus silahlı birləşmələri tərəfindən törədilmiş Xocalı soyqırımı zamanı əksəriyyəti dinc insanlar - uşaq, qadın, qoca olmaqla 613 azərbaycanlı öldürülüb, yüzlərlə insan yaralıb, neçə-neçə ailə bütövlükdə məhv olub, 150 nəfər itkin düşüb, 1275 nəfər Xocalı sakini əsir götürülüb. Onların taleyindən hələ də xəbər yoxdur.

Beynəlxalq birlik, Haaqa Tribunalı (Beynəlxalq Məhkəmə) XX əsrin bəşəriyyət əleyhinə olan bu ən qəddar cinayətlərdən birinə hələ də hüquqi qiymət verməyib. Xocalı hərbi caniləri - Ermənistanın hazırkı prezidenti Serj Sərkisyan, onun sələfi Robert Köçəryan, indiki müdafiə naziri və 366-cı rus motoatıcı alayının o vaxtkı zabiti Seyran Ohanyan, habelə həmin alayın digər zabitləri məsuliyyətə cəlb olunmayıblar.

❑ **Siyasət şöbəsi**



# Azərbaycanın İran və Türkiyəyə qarşı viza rejimi saxlamasında erməni faktoru

**Bir neçə gün öncə Azərbaycan prezidentinin İrana səfəri zamanı gözlənilən əsas məsələlərdən bir də o idi ki, İranla Azərbaycan arasında olan birtərəfli viza rejimi ləğv ediləcək. Lakin bu məsələ nə prezidentlərin görüşündə, nə də mətbuat konfrasında gündəmə gətirilmədi. Münasibətlərin bu dərəcədə istiləşdiyi bir vaxtda belə Azərbaycan tərəfinin İran vətəndaşlarına qarşı viza rejimini ləğv etməməsi onu göstərir ki, hökumət hələ ki, belə bir addım atmağı düşünmür.**

O cümlədən Türkiyə ilə münasibətlərin də yüksək səviyyədə olmasını nəzərə alsaq, bugünədək viza rejiminin ləğv edilməməsi sual doğuran məsələdir. Onu da qeyd etmək lazımdır ki, hər iki ölkə Azərbaycan vətəndaşlarına qarşı viza rejimini ləğv edib. Bundan başqa, Azərbaycan Rusiya vətəndaşlarından viza tələb eləmir.

Bəs görəsən, Azərbaycan hökumətinin bu iki ölkəyə qarşı vizanı ləğv etməməsinin başlıca səbəbi nədir və hökumət hansı şərtlər altında bu addımı ata bilər?



**Elxan Şahinoğlu:** "Təhlükənin qarşısını viza rejimi ilə almaq mümkün deyil"



**Aydın Mirzəzadə:** "Müharibə vəziyyətindən çıxdıqdan sonra qonşu ölkələrin hamısı ilə viza rejimi götürülə bilər"

"Yeni Müsavat"ın suallarını cavablandıran politoloq Elxan Şahinoğlu bildirdi ki, hökumətin viza rejimini saxlamaqla bağlı səsləndirdiyi arqumentlər əsassızdır: "İlham Əliyevin İrana səfəri zamanı belə bir məlumat yayıldı ki, vizaların yumşalması mümkündür, bu istiqamətdə müəyyən addımlar atılacaq. Ancaq səfər zamanı bu haqda heç nə deyilmədi, heç mətbuat konfransında da deyilmədi, bu istiqamətdə heç bir müqavilə imzalanmadı. Sonra İranın Azərbaycandakı səfiri açıqlama verdi ki, viza rejimi yumşaldıla, hətta tamamilə aradan qaldırıla bilər. Mənim də fikrim odur ki, Azərbaycan ümumiyyətlə, hər iki ölkəyə qarşı viza rejimini aradan qaldırmalıdır. Əgər İranla sıx iqtisadi ticarət əlaqələrinin olmasını istəyiriksə, viza ləğv olunmalıdır. Bunun siyasi tərəfi də odur ki, İran azərbaycanlılarının Azərbaycana bağlılığı getdikcə arta bilər. Viza rejimi mütləq ortadan qaldırılmalıdır".

Elxan Şahinoğlu hökumətin viza məsələsini ölkənin təhlükəsizlik maraqları baxımından qiymətləndirməsini əsassız yanaşma kimi qiymətləndirdi: "Düzdür, hesab edilir ki, viza rejimi ləğv olunsa, müəyyən təhlükələr ola bilər. Ancaq təhlükənin qarşısını viza rejimi ilə almaq da mümkün deyil. Digər tərəfdən Azərbaycan turizmin inkişafını istəyirsə, nəzərə almalıdır ki, ən çox turist qonşu ölkələrdən Azərbaycana gələ bilər. Məsələn, Novruz bayramında İrandan Azərbaycana daha çox adam gələ bilərdi. Ancaq viza rejimi orada yaşayan azərbaycanlıların da ölkəmizə gəlməsinin qarşısını alır.

Eyni zamanda Türkiyə vətəndaşlarına qarşı vizanı aradan qaldırmaq lazımdır. Bunu da bəzən təhlükəsizlik amili ilə izah edirlər. Guya Türkiyədə hansısa erməni mənşəli kimsə gəlib Azərbaycanda nə isə törədə bilər. Bu da heç bir məntiqə sığmayan bir yanaşmadır. Çünki, Gürcüstanda yaşayan ermənilərin sayı Türkiyədə olan ermənilərin sayından daha çoxdur. Lakin biz Gürcüstan vətəndaşlarına viza tətbiq etmirik. Bunlar hamısı bir bəhanədir. Ona görə də, düşünürəm ki, Azərbaycan İran vətəndaşlarına qarşı vizanı ləğv etsə, eyni istək və tələb Türkiyədən də gələcək. Ona görə də, düşünürəm ki, Azərbaycan hökuməti ya hər iki ölkəyə qarşı vizanı ortadan qaldıracaq, ya da xeyli yumşaldılacaq və Türkiyədə olduğu kimi hava limanında onların pasportları viza olunacaq".

Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü Aydın Mirzəzadə isə müharibə şəraitində olan bir ölkə kimi Azərbaycanın viza rejimini saxlamasını müsbət dəyərləndirdi: "Əvvəlcə onu nəzərə almaq lazımdır ki, Azərbaycan müharibə şəraitində olan bir ölkədir. Viza rejiminin olmaması hansısa bir ölkədən qeyd-şərtsiz, sadəcə pasportla istənilən ölkənin vətəndaşının Azərbaycana daxil olmasına şərait yaradır. İran və Türkiyədə çox sayda erməni yaşayır. Əgər vizasız rejim olarsa, onların Azərbaycana gəlişinə hər hansı qadağa qoyula bilməz. Bu səbəbdən indiki məqamda həmin ölkələrlə viza rejiminin saxlanılmasına ehtiyac var. Lakin bu o demək deyil ki, İrandan və Türkiyədən Azərbaycana gələnlərə qarşı sərhəddə hər hansı problem yaradılacaq. Azərbaycana biznes qurmaq və ya humanitar məqsədlər üçün gələn insanların heç biri hələ Azərbaycan sərhədində problemlə üzləşə bilməz. Yeganə şərt Ermənistanın Azərbaycan torpaqlarını işğaldan azad etməsidir. Azərbaycanın müharibə vəziyyətindən çıxmasından sonra qonşu ölkələrin hamısı ilə viza rejimi götürülə bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016



# İşıqları söndürün, məclisə sintetik düyüdən aş gəlir

Samir SARI

**Mən axırıncı dəfə Amerikada olanda Cənubi Karolina ştatının paytaxtı Kolombia şəhərindən bir az kənarda yerləşən alış-veriş mərkəzinə getmişdik. Orda mağazaların birində 11-12 yaşlı oğlan uşağı üçün çox gözəl bir idman ayaqqabısı gördüm. Gözəl görünüşlü, ağ-qara rəngli bir şey idi. Əvvəlki qiyməti 55 dollar olmuşdu, amma ikiqat endirim eləmişdilər. Ayaqqabı o qədər xoşuma gəldi ki, onu aldım, fikirləşdim ki, bir ölçü böyük olsa da, eybi yoxdur, oğlum gələn il geyər.**

Vətənə qayıdıb evə çatdıqda ilk işim gözəl görünüşlü idman ayaqqabısını pələng öldürmüş cəngavər ədasıyla hədiyyə sahibinə çatdırmaq oldu. Ayaqqabıdan hamının xoşu gəldi, bəh-bəh dedilər, amma adətləri üzrə məmulatın altına, üstünə, dabanına, içinə baxaraq mənə belə bir xəbər verdilər: "Bay, bu kitayskidir ki".

Özümü o yerə qoymasam da pərt oldum. Üç təyyarə dəyişərək on min kilometr uç, Atlantik okeanının üstündən süz, o boyda Amerikaya keç, ordan Çin malı seç, al gətir. Olacaq şeydirmi?

Uşaqlara dedim ki, bu, bildiyimiz Çin mallarından deyil, bu, daha keyfiyyətlidir, bunu xüsusi olaraq ABŞ üçün buraxırlar. Dedim, baxın, ayaqqabının altında "only for USA" da yazılıb, yəni yalnız ABŞ üçün.

Nə qədər təskinlik üçün deyilsə də, burada həqiqət də vardı. Məsələ ondadır ki, gerçəkdən də ABŞ-ın bir çox şirkətləri öz müəssisələrini aparıb Çində quraşdırıblar - orda işçi qüvvəsi ucuzdur deyə. Amerika fəhləsinə ayda 2 min dollar (minimum) verməkdənsə, çinli fəhlələrin onuna 2 min verirlər. Üstəlik, Çində xammal da ucuzdur, ona görə də sahibkarlar bu müəssisələrdə istehsal olunan məmulatlardan çox qazanırlar. Məsələn, 10-15 dollara başa gəlmiş idman ayaqqabısını aparıb öz ölkələrində 55 dollara satırlar. Bir xeylisi satılandan sonra endirim edirlər, Azərbaycandan gələn jurnalist də "Amerika malı" hesab edərək sevinə-sevinə 27 dollar verib alır.

İnsaf naminə deyim ki, həmin idman ayaqqabısı çox keyfiyyətli çıxdı, yaquarım onu mindi-çapdı, cırılmadı, axırda ayağına kiçik oldu, çəkələyə döndərdi. Yəni bu "only for USA" olan Çin malı "Sədərək"dən, "Binə"dən, şəhərdəki digər adına "moll" deyilən mağazalardan alınan Çin mallarından deyildi, daha keyfiyyətliydi. Bununla belə, həmin alış-veriş mənim ailədaxili reputasiyama öz zərərini vurub, özümü hələ də "Amerikadan kitayski krossovka alıb gətirən" adam hesab edirəm. Məsələnin, türkün sözü, tühaf tərəfi, Çin malı almaqda deyil, o malı Amerikadan almaqdadır.

İki ay əvvəl Brüsseldə olanda isə ağıllı tərpəndim, son anda Çin malı almaqdan vaz keçdim. Köhnə təcrübəyə dayanaraq almaq istədiyim köynəyin ora-burasına baxdım və "MADE İN CHİNA" kəlmələrini oxuyandan sonra dedim, yox, indi də "Belçikadan kitayski köynək alan" epitetinə tablaşa bilmərəm.

Dünən internet resurslarında, sosial şəbəkələrdə Çində sintetik düyü istehsal edən zavodun sexlərindən hazırlanmış videonu görəndən sonra artıq anlamışam ki, bizə, bəşər əhlinə qurtuluş yoxdur. Dünyanın harasına gedirsən, get, orda Çin malı var. Hətta quşqulanıram ki, Marsa göndərilən cihazın da müəyyən komponenti Çində düzəldilib. Bu saat dünyanı Çin geyindirir, Çin yedirdir.

O düyü istehsalından bəhs edən video isə yeni xanədəndir. İndən belə toyda, yasda masaya plov qoyulanda, onun sintetik düyüdən olub-olmamasını necə dəqiqləşdirəcəyimi bilmirəm. Toydan fərqli olaraq yas yerində alternativ qidalar çox az olur (pendir, göy, halva, vəssalam), aş yeməyə məcbursan.

Bəs adətən axşam saat 10-da tamadaların "məclisin şahı aş gəlir" deyə işıqları söndürdərək, əvvəli həzin, sonu ritmik musiqinin sədaları altında, yeddi-səkkiz dəliqanlının, rəqqas və rəqqasələrin müşayiəti ilə toya aş gətirilməsi ritualı necə olacaq? Bir nimçə sintetik düyüdən bişiriilmiş xörək üçün o qədər əziyyət çəkməyə, Roma Papasının taxta çıxarılmasına oxşayan ayin icra etməyə dəyərmi?

Uzun sözün kəsəsi, bəşər əhli oturub düşünməlidir: necə eləsin ki, canını Çin geyimindən olmasa da, ən azı Çin qidasından qurtarsın. Belə getsə, Çin milyard yarımlıq acını doyurmaq üçün yerdə qalan beş milyard insanı qıracaq.

# Nardaran olaylarında ölənlərin harada dəfn edildiyi bilindi

## Məzarlıq ətrafında hələ də polis əməkdaşları növbə çəkir

**Nardaran qəsəbəsində ötən il dekabrın 1-də qurulan polis postlarının əksəriyyəti götürülüb. Kəndə giriş-çıxış sərbəst şəkildə mümkündür. Qəsəbədə yolların genişləndirilməsi, kommunikasiya xətlərinin yenilənməsi işləri davam etdirilir. Hazırda Nardaranda yalnız 3 yerdə polis postu qalmaqdadır.**

Kəndə aparan Abşeron küçəsi hazırda bağlanıb. Küçədə təmir-tikinti işləri davam etdirilir, asflat örtüyü yenilənir. Musavat.com-un əməkdaşı Nardaranda olarkən kəndəki son vəziyyətlə tanış olub.

Kəndin "İmam Hüseyn meydanı" adlanan mərkəzi hissəsində təmir-tikinti işləri başa çatıb. Qəsəbənin digər küçələrində də yolların genişləndirilməsi nəzərdə tutulub və artıq plan hazırlanıb. Sabunçu Rayon Polis İdarəsinin 42-ci Polis Bölməsi və "Azərişıq" ASC üçün inzibati binalar burada tikilib. Kəndin müxtəlif yerlərində 44 nəzarət kamerası quraşdırılıb.

Son günlərə qədər Nardarana girişdə Daxili Qoşunlar və polis tərəfindən qurulan bütün postlar götürülüb. Yalnız kədin Abşeron küçəsində, "Əli meydanı"nda polis postları görmək mümkündür.

Kənddə rahat şəkildə avtomobillə və ya piyada şəkildə hərəkət etmək mümkündür. Sakinlərin sözlərinə görə, polis əməkdaşları yalnız şübhəli bildikləri şəxsləri saxlayaraq sorğu-sual edirlər.

Nardaranda olarkən 2015-ci ilin noyabr ayının 26-da polislə silahlı qarşıdurmada öldürülənlərin dəfn olunduğu məzarlığa da yollana bildik. Kənd sakinləri arasında bu məzarlıq "Köhnə Nardaran qəbiristanlığı" kimi adlanır. Bu məzarlıqda yaxın 20 il ərazində kənd sakinlərindən heç kim dəfn edilməyib. Kəndin əsas qəbristanlığı "Əli meydanı"nın yanında, "Cümə" məscidinin yanındadır. Kənd sakinləri də əsasən burada dəfn edilir. Yalnız Nardaran hadisələrində öldürülən 4 nəfər burada dəf edilib. Köhnə qəbristanlıqda 4 məzardan başqa bir neçə qədim başdaşı görmək mümkündür.





Məzarlıqda Nardaran sakinləri Əkbər Babayevin, Fərahim və Rəfael Bünyatov qardaşlarının və Masallı rayon sakini Sarvan Səfərovun qəbirləri var. Məzarlığın ətrafında bu gün də polis əməkdaşları növbə çəkir. Yaxınlıqda yaşayanların bildirdiyinə görə, qəbirləri ölənlərin yalnız ailə üzvləri bir neçə dəfə ziyarət edib.

Xatırladaq ki, ötən il noyabrın 26-da polislə silahlı qarşıdurmada 4 dindar öldürülüb. 2 polis əməkdaşı da həlak olub. Müsəlman Hərəkatı Birliyinin sədri Tale Bağırzadə və bir neçə dindar həbs edilib. Bundan sonra kənd sakinləri noyabr ayının sonunadək kənddə aksiyalar keçirmiş, kəndə girişlərdə barikadalar qurmuşdular. Daxili Qoşunların və polisin keçirdiyi əməliyyatdan sonra Nardaran dekabr ayının birindən nəzarətdədir. Hadisələrdə iştirak edən onlarla kənd sakini həbs edilib.

❑ İlkin Muradov
❑ Fotolar müəllifindir

# Adı bizim, dadı məmurların olan Xəzər...

## Hasarlar arxasındakı lüks həyatla bağlı yeni faktlar







**Xəzər dənizi əslində xalqın təbii sərvətidir - nefti, qazı, kürüsü ilə birlikdə. Amma bu sadaladıqlarımız xalq olaraq görmədiklərimizdir. Bizə göstərilməyənlərdir. Bəs, suyu, sahili? Niyə Xəzər sahillərinə əlimiz çatmır? Və ya çatanda da ödənişli olmalıdır? Axı Xəzər hamımızındır...**

Xəzər dənizinin insan əli çata biləcəyi hər yeri ya hasarlanıb, ya da orada istirahət mərkəzləri yerləşir. Mərdəkanı, Şüvəlanı, Nabranı, Buzovnası, Pirşağısı - insan əli çata biləcək hər yeri bu durumdadır.

Xəzərin çox ciddi "hasar dərdi" var. Bu dərd və ya problem bir neçə dəfə Milli Məclisin də müzakirəsinə çıxarılıb. Sanki hasarlanmasından bixəbərmişlər kimi hasarlayanlara etiraz edənlər, irad bildirənlər də var. Amma nəticə yoxdur. Bəzən isə hasarlarla bağlı ən "məntiqli" izah belə verilir: "İnsanların təhlükəsizliyini təmin etmək üçün çəkilir...".

Hasar sevgisi olanların seçimi də təbii ki, zövqlü olur. Onlar Xəzərin ən gözəl, ən təmiz sahillərini boyaboy hasarlayırlar. Bizə qalan isə zibilli, çirkab suları ilə dolu və ya hansısa sahibkar tərəfindən zəbt edilmiş ödənişli sahillərdir. Bəzən ödənişsiz yer axtaran insanlar Xəzərin təhlükəli ərazilərinə üz tuturlar. Hansı ki, o sahillər "təhlükəsizliyimiz" üçün hasarlanmayıb.

Sözü dolayı yolla deməyə ehtiyac da yoxdur. Təbii ki, Xəzər sahillərinin məmurlar arasında səliqəli şəkildə bölüşdürüldüyü aydındır. Məmurlar böldüklərini bölüb, qalanını da satıblar. Axı hansısa məmurun xəbəri olmadan Bakıda daş üstünə daş qoymaq mümkünmü? Əlbəttə ki, yox!

Azərbaycanda məmurlarla vətəndaşlar arasında ayrı həyat olduğu kimi, məmurlarla Xəzər arasında da ayrı bir həyat var. Hansı ki, o həyatı bizim görməyimizi istəmirlər. İstəyirlər ki, onların Xəzər sahilindəki həyatı elə hasarla dəniz arasında qalsın. Amma vətəndaş istəyir ki, məmurlar onların həyatını görsün. Amma görmürlər. Çünki onlar əsasən bir neçə saat kabinetdə, daha sonra isə hündür hasarlar arxasında yaşayırlar.

Yəqin ki, yolu Bakının cənub girişindən düşən hər kəs sahil boyu uzanan istirahət mərkəzlərini, saysız-hesabsız möhtəşəm villaları görüb. Villa, istirahət mərkəzi olmayan sahillər isə hasarlanıb. Yəqin ki, sonra lazım olar, deyə. Və yaxud "təhlükəsizliyimiz" düşünülərək...

"Bibiheybət" məscidindən sonra başlayan istirahət mərkəzləri, otellər boyhaboy düzülüb. Ta ki, Xəzərin insan əli dəyə biləcəyi, yay fəslində çimərlik kimi istifadə edə biləcəyi yerə qədər, bircə qarış yer də saxlamamaq şərti ilə.

Sonra da villalar... Uzun hasarlı, nəzarət kameralı, mühafizəçiləri olan villalar. O hasarların arxasında çox şey var. Yaxtalar, möhtəşəm malikanələr, dənizin ortasına aparan yollar və daha nələr, nələr...

Bu villalar kimlərindir, necə tikiblər, nə ilə tikiblər deyə sual etmirik. Bəlkə də "bu bizi maraqlandırmır" deyə düşünənlər var. Amma tək gerçək budur ki, Xəzər bizimdir - Azərbaycan xalqınındır. Di gəl Xəzərin bizə çatan yalnız sahilləridir, onunla da aramızda hasarlar var - aşa bilməyəcəyimiz hasarlar...

Yaxşı ki, bulvar var. Amma bizə haqqımız olan - Xəzər lazımdır. Hasarsız, özgür Xəzər...

❑ İlkin Muradov
❑ Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2014

# İcra başçısına korrupsiya ittihamı - şok faktlar


Şahin Məmmədov

## Ağcabədidəki büdcə talanının xəritəsi dövlət orqanlarına göndərildi; rayon sakininin "Yeni Müsavat"a yolladığı məktubda milyonların necə ələ keçirilməsi öz əksini tapıb...

**Ağcabədi Rayon İcra Hakimiyyətinə ayrılan milyonlarla manatın mənimsənilməsinin sxemi Prezident yanında Apelyasiya Şurasının sədri və Dövlət Nəzarəti şöbəsinin müdiri Eldar Nuriyevə, Milli Məclisin üzvü Vahid Əhmədova, maliyyə naziri Samir Şərifova və baş prokuror Zakir Qaralova göndərilib. Bu haqda "Yeni Müsavat"a rayonun Avşar kənd sakini Elqayıt Kərimov məlumat verib.**

**Başçı 12 min hektar torpağı satmaq istəyir!**

O, readaksiyamıza Ağcabədidəki talanla bağlı dövlət orqanlarına yolladığı məktubun surətini də təqdim edib. Həmin məktubda deyilir: "Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov 13 aprel 2015-ci il tarixdə 120 sahibkarın qarşısında çıxışında deyib ki, 2008-ci ildə ona 5 diplomat pul təklif olunub. Başçı deyib ki, ona həmin pul qarşılığında Haramı və Ergi torpaqlarını satması təklif olunub. Lakin başçı bundan imtina etmədiyini söyləyib. Belə görünür ki, indi artıq pulu veriblər. Ona görə Şahin Məmmədov 12 min hektar torpağı satmaq istəyir.

**"Araşdırılsın görək, 5 diplomat pulu verən kimdir?"**

Şikayətçı yazır: "Şahin Məmmədov Kür qırağında Ağcabədi rayonunun Sarcalı kəndinə məxsus olan 3 min hektar qış-otlaq sahəsinin təyinatını dəyişdirərək camaatdan alıb və hansısa şirkətə satıb. Başçı belə hesab edir ki, o, bütün Ağcabədini sata bilər. Rayonun Kəbirli kəndindən də 2800 hektar torpağı satıb. Xahiş edirik ki, araşdırılsın görək, 5 diplomat pulu verən kimdir?

Şahin Məmmədov prezidentin abadlıq üçün ayırdığı pulları mənimsəyib. O, abadlıq işlərini sahibkarlara, mağaza sahiblərinə, idarə və təşkilatlara, məktəblərə, xəstəxanalara və s. gördürərək prezidentin rayona ayırdığı milyonları mənimsədi. 2013-cü ildə Ağcabədi Rayon İcra Hakimiyyətinin fondundan tender yolu ilə külli miqdarda vəsait mənimsənilib və ayrı-ayrı kənd icra nümayəndələrinə saxta sənədlər tərtib edilib.

**Büdcə talanının siyahısı**

E.Kərimov həmin yerli icra hakimiyyəti qurumlarının adlarını və ayrılaraq mənimsənilən vəsaitləri də konkret olaraq göstərir:

1.Pərioğullar kənd icra nümayəndəliyinə 13 min 200 manat;

2.Salmanbəyli kənd icra nümayəndəliyinə 9 min 400 manat;

3.Şahsevən kənd icra nümayəndəliyinə 4 min 200 manat;

4.Yeniqaradolaq kənd icra nümayəndəliyinə 13 min 200 manat;

5.Hacıbədəlli kənd icra nümayəndəliyinə 29 min 200 manat;

6.Hüsülü kənd icra nümayəndəliyinə 15 min 800 manat;

7.Qaradolaq kənd icra nümayəndəliyinə 13 min 200 manat;

8.Hacılar kənd icra nümayəndəliyinə 9 min 400 manat;

9.Minəxorlu kənd icra nümayəndəliyinə 9 min 400 manat;

10 Ağcabədi şəhər icra nümayəndəliyinə 85 min 500 manat;

11 .Şərəfxanlı kənd icra nümayəndəliyinə 6 min 800 manat;

12.Kəbirli kənd icra nümayəndəliyinə 8 min 400 manat;






13.Boyad kənd icra nümayəndəliyinə 22 min 500 manat;

14.Ağcabədi rayon təhsil şöbəsi 25 min 299 manat;

15.Ağcabədi rayon Mədəniyyət Şöbəsi 102 min 624 manat;

16.Ağcabədi rayon Təhsil Şöbəsi "Cavid Kİ" MMC 113 min 890 manat;

17.Ağcabədi rayon Təhsil Şöbəsi "Əzim 3 M" MMC 112 min 910 manat;

18.Ağcabədi rayon Mərkəzi Xəstəxanası "Tünzalə V" MMC 86 min 900 manat;

19.Ağcabədi rayon Mədəniyyət və Turizm Şöbəsi "Ülkər H" MMC 4795 manat;

20."Rasmik" MMC 24 min 812 manat;

21.Ağcabədi şəhər icra nümayəndəliyinə 650 min 462 manat;

**Sahibkarlar prezidentə müraciət etdikləri üçün təqib olunur**

Şikayətçi yazır ki, respublika rəhbərliyinə müraciət etdikləri üçün Şahin Məmmədov tərəfindən təqib olunurlar: "Bizə qarşı şantajlar olunur. İndi Şahin Məmmədov heç bir əsas olmadan bir qrup sahibkarı məhkəməyə verib və deyir ki, mənim imkanlarım sizinkindən çoxdur, məhkəməyə təsir edərək sizi torpaqlarınızdan çıxardacam və sizə məxsus olan torpaqları satacam.

**"Hansı qanunda var ki, Şahin Məmmədovdan şikayət onun özünə göndərilsin?"**

Şikayətçi yazır ki, yazdıqları ərizələr baş prokuror Zakir Qaralova çatdırılmır: "Bütün ərizələri ayrı-ayrı təşkilarlara, ya da Ağcabədi Rayon İcra hakimiyyətinə göndərirlər. Korrupsiya faktı olduğu halda məktublar Əmlak Məsələləri Dövlət Komitəsinə, Ağcabədi Rayon Prokurorluğuna və Ağcabədi Rayon İcra Hakimiyyətinə göndərilir. Bu hansı qanunda var ki, Şahin Məmmədovdan şikayət edilsin, ərizə və şikayət onun özünə göndərilsin?"

**"İcra başçısının Batumidə, Dubayda, Almaniyada villaları var"**

"Şahin Məmmədov vəzifəsindən istifadə edərək Ağcabədidə, Bərdədə və Gəncədə pay torpaqlarında böyük evlər tikdirib. Onun eyni zamanda, Daşkəsəndə Xoşbulaq yaylağında bir villası, Bakı şəhərində isə sayı məlum olmayan villa, ev obyektləri vardır. O, Batumidə, Dubayda, Almaniyada villalar alıb. Bütün bunlar üçün külli miqdarda vəsait xərclənib ki, Şahin Məmmədovun halal qazancı buna yetməz. Elə bunun özündə korrupsiya faktları görünür" deyə, yazıda bildirilir.

**Körpüyə ayrılmış pullar kim tərəfindən mənimsənilib?**

E.Kərimov yazır ki, Ağcabədi rayonunu içməli su ilə təmin etmək üçün Qarqar çayı sahilindən 3 ədəd artezian quyusundan 16 km uzunluğunda su kəməri çəkilib: "Şahin Məmmədov artezian quyularını çobanlara satıb və 16 km çuqun turbanı çıxartdıraraq 1 milyon manata satıb.

Qaradolaq, Mehrablı, Yeniqradolaq və Aran kəndlərinin içməli su ilə təmini üçün külli miqdarda vəsait ayrıldı, iş isə görülmədi. Hüsülü-Qiyamadmlı yolun təmirinə 5 milyon manat pul ayrılıb, həmin işi Ağcabədi rayon yol tikinti idarəsi tərəfindən görüldüyü halda həmin yolunun tikintisini Şahin Məmmədova məxsus olan "Fərid MMC" tərəfindən sənədləşdirərək pullar mənimsənildi. Xahiş edirəm yoxlanılsın görək körpüyə ayrılmış pullar kim tərəfindən mənimsənilib?

2014-cü ildə Ağcabədi rayonunda Şahin Məmmədovun rəhbərliyi altında tikilən 4 məktəbin heç birində sığınacaq tikilməyib və pullar mənimsənilib. Tikilən binalar bərbad haldadır.

Bildirirəm ki, Ağcabədi rayonunun Hüsülü, Muğanlı, Təzəkənd, Minaxorlu, Arasbar, Qiyamadmlı, Mirzaxverdili, Kürdlər, Kəhirli və Şərəfxanlı kəndlərinə 2014-cü ildə yolların əsaslı təmirinə 5 milyon manat pul ayrılmışdır. Həmin kəndlərə yol çəkilib və 2014-cü ildə yollar istifadəyə verilib, lakin Qarqar çayının üstündən körpü salınmamış, bildiriblər ki, verilən pullar qurtardı. Həmin pullar Şahin Məmmədov tərəfindən mənimsənilib. Dövlətə məxsus olan asfalt zavodu işləri gördüyü halda Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova məxsus "Fərid MMC" şirkəti tərəfindən işlərin görülməsi sənədləşdirilib və Prezident tərəfindən ayrılmış pullar mənimsənilib".

**Yolun pulunu kim yeyib?..**

Məktubdan daha bir sitat:

"Şahin Məmmədov yenidən həmin yolların çəkilməsi üçün 2015-ci ildə 2 milyon 700 min manat pul ayrılmasına müvəffəq oldu. Xahiş edirəm gəlib yerində yoxlayın görək 2014-cü ildə istifadəyə verilmiş yola pul ayırmaq nə deməkdir? Rayonun Avşar, Salmanbəyli, Taymaq, Hacıbədəlli və Şənlik kəndlərinin yolları bərbad haldadır, deyəndəki bizim yolları təmir edin Şahın Məmmədov bildirir ki, vəsait yoxdur. Xahiş edirəm bu faktlar yerində yoxlanılsın və 2 milyon 700 min manat pulun verilməsi dayandırılsın və bu pullar təmir olunmamış yollara verilsin və Şahin Məmmədov haqqında ciddi tədbir görülsün".

**"Bizi susdurmaq istəyirlər"**

Şikayətçı sonda yazır: "Ağcabədi rayonunun Təhsil və Mədəniyyət işçilərinin 2015-ci ilin noyabr və dekabr aylarının əmək haqlarını vermədən pulları mənimsənilib. Maaşların alınması üçün müəllim kollektivi yuxarı təşkilatlara yazandan sonra yanvar ayının axırında əmək haqları verildi. Lakin direktorların əmək haqları mənimsənildi. 16 yanvar 2016-cı ildə Ağcabədidə qaçqın şəhərciyində Hüsülü və Hindarx kəndlərində keçirilən aksiyada bildirib ki, "avşarlara mən çox pisliklər etmişəm, lakin onlar sizin kimi yolu bağlayıb nümayiş etmirlər". Şahin Məmmədov istəyir ki, avşarlılar yolu bağlayıb nümayiş etsin. Biz dövlətimizi sevirik, qanuni haqqımızı tələb edərək Şahin Məmmədovun korrupsiya faktlarının bizim iştirakımızla yerində yoxlanılmasını xahiş edirik. Maliyə Nazirliyi, Hesablama Palatası və Korrupsiyaya Qarşı Mübarizə İdarəsi Şahin Məmmədovu müdafiyə edərək bildirirlər ki, "iş gedir, yoxlayacağıq". Lakin 9 ayda heç bir iş görmədən bizi aldadaraq bizi məhkəməyə verməklə susdurmaq istəyirlər".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016

# "Kredit borcuna görə vətəndaşın həbs edilməsi mümkün deyil"

## Əkrəm Həsənov: "Azərbaycanın qoşulduğu insan haqları konvensiyasında da konkret göstərilib ki, borca görə heç kimi tutmaq olmaz..."

**Azərbaycanda problemli kreditlərin həcmi artmaqda davam edir. Qeyri-rəsmi məlumatlara görə, artıq ölkə üzrə problemli kreditlərin həcmi 2 milyard manata yaxındır və bu məbləğ artmaqda davam edir. İş yerlərinin və biznes müəssisələrinin bağlanması, işsizliyin artması problemli kreditlərin də həcminin artmasına gətirib çıxarır. Banklara kredit borcu olan vətəndaşların, xüsusilə də dollarla kredit götürənlərin əksəriyyəti ya borcu ödəyə bilmir, ya da ödəməkdən imtina edir. Bu durumda vətəndaşları bir sual maraqlandırır: Əgər borcu ödəməməyə görə, bank onları məhkəməyə versə, həbs perspektivi mümkündürmü? Borcunu ödəməyən vətəndaşı ən pis halda nə gözləyir? Bu durumda vətəndaşların hansı hüquqi imkanları var?**



"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran hüquqşünas, bank və maliyyə məsələləri üzrə vəkil Əkrəm Həsənov bildirdi ki, kredit borcuna görə vətəndaşın həbs edilməsi mümkün deyil: "Azərbaycanın qoşulduğu insan haqları konvensiyasında da konkret göstərilib ki, borca görə heç kimi həbs etmək olmaz. Azərbaycan qanunvericiliyi də buna yol vermir. Düzdür, təcrübədə əvvəllər belə hallar olub. Ancaq bu, qanunsuz olub və həmin şəxslər öz hüquqlarını bilməyiblər. Ancaq belə hallar geniş yayılmayıb, son vaxtlar ümumiyyətlə yoxdur. Çünki Azərbaycanın hüquq ictimaiyyəti daha çox aktivləşib və hakimlər də artıq belə qərarlar çıxarmırlar. Çıxarsalar da, biz bu məsələnin axırına kimi gedəcəyik. Lazım olsa, Avropa məhkəməsinə də müraciət edəcəyik və bu qərarları ləğv etdirəcəyik. Yəni, burada şəxsin azadlığına heç bir təhlükə yoxdur".

Ekspertin sözlərinə görə, çətin vəziyyətdə olan o vətəndaşlardır ki, banklarda əmlakı və girovu var, borcunu ödəmədiyi halda o girov əlindən çıxa bilər: "Bu halda da banklar vətəndaşlara kömək etməlidir. Çünki, Konstitusiyan Məhkəməsi ötən il verdiyi qərarda banklara göstəriş verdi ki, vətəndaşlara güzəştə gedə bilərlər. sadəcə onlar Konstitusiyan Məhkəməsinin qərarına hörmət etmirlər və güzəştə getmirlər. Lakin biz bu işləri də məhkəmə yolu ilə yoluna qoyacağıq ki, banklar bu güzəştlərə getsinlər. Hətta bunlar olmasa belə mən borclu vətəndaşlara tövsiyə edirəm ki, özləri məhkəmə proseslərinə başlasınlar və banklar da onları məhkəməyə verəndə məhkəmədə aktiv olsunlar, haqlarını qorusunlar, həm də məhkəmə proseslərini uzatsınlar. Ən sadə halda məhkəməni ilyarım - iki il uzatmaq olur. Məhkəmənin uzadılması isə banka xeyir deyil, yalnız zərər vura bilər. Özü də indiki şəraitdə kütləvi məhkəmə prosesləri uzansa, bu o deməkdir ki, bankların kreditləri çox gec qayıdacaq. Çünki məhkəmə prosesləri gedə-gedə o girov əmlakı da əlinə keçirə bilməyəcək, satışa çıxara bilməyəcək. Deməli, krediti çox gec qayıdacaq".

Əkrəm Həsənov bir nüansı da vurğuladı ki, mənzil hərracda satışa çıxarılsa belə, vətəndaş müxtəlif yollarla mənzilinə sahib çıxa bilər: " Azərbaycanda daşınmaz əmlakın qiyməti düşür və bu tendensiya davam edir. Deməli o girov əmlakın da qiyməti azalacaq. Buna görə də bank orada da uduzacaq və vətəndaş udacaq. Çünki vətəndaşın 100 min manat borcu varsa və vaxtilə evinin qiyməti 130 min manat idisə, indi həmin evin qiyməti 70 min manatdır. Digər bir tərəfi isə odur ki, girov əmlakı hərracda satışa çıxarırlar. Həmin vətəndaş hərracda hər hansı bir qohumu vasitəsilə həmin evi 40 minə də ala və evində yaşamağa davam edə bilər. Bank isə kreditin xeyli hissəsini itirəcək. Bütün bunlara görə də, banklar güzəştlərə getməsə, onlar üçün vəziyyət daha da pisləşəcək".

Əkrəm Həsənov bildirdi ki, banklar ən pis halda vətəndaşın əmlakını ala bilər, o da yalnız məhkəmə qərarı ilə açıq hərracda satılaraq banka verilə bilər: "Qeyd etdiyim kimi, vətəndaş əgər məhkəmə yolu ilə prosesə müqavimət göstərsə, ən azı ilyarım -iki il proses uzana bilər.

Hətta elə əmlak növləri var ki, onu vətəndaşın əlindən almaq olmaz. Qanunvericiliyə görə, əgər vətəndaşın bir evi varsa və o banka girov qoyulsa belə, bank onu vətəndaşın əlindən ala bilməz. Bu cür əmlak növləri çoxdur, ailənin gündəlik tələbatını ödəyən ev əşyaları televizor, soyuducu və sair varsa, onları da vətəndaşın əlindən almaq mümkün olmayacaq.

Düzdür, indi banklar vətəndaşları qorxudurlar. Lakin bunun hamısını ona görə edirlər ki, vətəndaşlar qorxsun və gedib kreditlərini qaytarsınlar. Mənim isə vətəndaşlara tövsiyəm odur ki, bunu etməsinlər".

❑ Nərgiz LİFTİYEVA

KAPİTAL BANK
Bank of Azerbaijan
BankAvrasiya
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
AMRAHBANK

# "Türmədə olan şəxsə qaçaqmalçılıq ittihamı ilə yenidən cəza verilib"

## Adəm Məmmədov: "Həmin cinayət hadisəsi baş verəndə Rafiq Əliyev artıq cəza çəkirdi, onun bu işə aidiyyəti yoxdur"

**11 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən Rafiq Əliyevin vəkili Adəm Məmmədov Ali Məhkəmənin Plenumuna müraciət edib. Vəkil müvəkkili barəsində çıxarılmış məhkəmə hökmündən şikayət vermə müddətinin bərpa olunmasını istəyir. R.Əliyev Ağır Cinayətlərə Dair Məhkəməsinin 2010-cu ilin mayında Cinayət Məcəlləsinin qaçaqmalçılıq, narkotik maddələrin daşınmasında təqsirli bilinərək 15 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.**




R.Əliyevin vəkili Adəm Məmmədov deyir ki, bu cəza müvəkkilinə həbsdə olduğu müddətdə verilib.

Vəkil bildirib ki, ittiham aktına görə Rafiq Əliyev, Asif Əzimov, Saleh Məmmədov, Pərviz Əliyev, Asəf Qasımov və İlham Səmədov İran vətəndaşı Səyid Dilavari adlı şəxs, şəxsiyyətləri istintaqa məlum olmayan 2 nəfərlə 2009-cu ilin aprelində ölkəyə 57 kiloqram narkotik gətirməkdə ittiham olunub: "Həmin vaxt Rafiq Əliyev artıq həbsdə olub. O, Ağır Cinayətlərə Dair işlər üzrə məhkəmənin 2 fevral 2007-ci il tarixli hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib. Pentensiar Xidmətinin 6 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkib. İttiham aktında yazırlar ki, guya Rafiq Əliyev 070-730-39-17 nömrəli mobil telefonla Astara rayon sakini Pərviz Əliyevlə əlaqə saxlayıb. İran vətəndaşları həmin narkotiki Pərviz Əliyevə və digər şəxsə təhvil veriblər. Sonradan narkotik maşına yüklənib. Lənkəran rayonunun çıxacağında hər iki avtomobil MTN-in əməkdaşları tərəfindən saxlanıb".

Vəkil qeyd edir ki, baş vermiş hadisəyə R.Əliyevin heç bir aidiyyəti yoxdur: "Belə ki, o, cəzaçəkmə müəssisəsində heç kimlə telefonla danışmayıb. Narkotik vasitələrin qaçaqmalçılığı və dövriyyəsi ilə məşğul olmayıb. 070 730 39 17 saylı mobil telefon nömrəsi ona məxsus deyil və həmin nömrədən istifadə etməyib. Həmin əməliyyat keçirilən zaman Rafiq Əliyev cəzasını 6 saylı cəzaçəkmə müəssisəsində çəkib, lakin səhhəti ilə əlaqədar olaraq Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülüb".

Vəkil deyib ki, iş üzrə məhkəmə aparılarkən bir çox hallar diqqətə alınmayıb: "Məhkəmə istintaqı zamanı müdafiəçi Səid Dilavari ilə Pərviz Əliyev arasında aparıldığı iddia olunan danışıqların səsləndirilməsi barədə vəsatət verib. Həmin vəsatət heç bir əsas göstərilmədən məhkəmə tərəfindən təmin edilməyib. Əgər şəxsin belə bir danışıq aparması iddia edilirsə və buna əsaslanıb ona cəza təyin olunursa, bu hal diqqətlə araşdırılmalı idi. Məhkəmə qeyd edilən hala hüquqi qiymət verməməklə cinayət işinin tam, hərtərəfli və obyektiv araşdırılmasından demək olar ki, imtina edib. Bu və digər hallar Rafiq Əliyevin cinayət hadisəsinə aidiyyətinin olmamasını sübut edir. İstintaq tərəfindən onun təqsiri sübuta yetirilməyib. Ona verilmiş ittiham mötəbər sübutlara əsaslanmır. Rafiq Əliyevin cinayət hadisəsinə aidiyyəti olmadığından barəsində bəraət hökmü çıxarılmalıdır".

❑ E.HÜSEYNOV




# Qətldə təqsirləndirilən məhkumun xanımı Konstitusiya Məhkəməsinin sədrinə müraciət etdi

## Zəminə Əliyeva: "8 aydır körpə uşaqları ilə görüşə bilmir"

**Xızıda törədilən qətl işinə görə həbs olunan sabiq polis əməkdaşı Samir Əliyevin həyat yoldaşı Zəminə Əliyeva Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə müraciət edib. Z.Əliyeva həyat yoldaşının konstitusion hüquqlarının tapdandığını, həyat yoldaşına qarşı haqsızlıqlar olduğunu bildirir: "8 aydır ki, Samirə körpə uşaqları ilə görüş verilmir, telefon danışığına da qadağa qoyulub. Müstəntiq Aslan İbrahimov qadağanın adını məhdudiyyət qoyur. Faktiki isə bu qadağadır".**

Z.Əliyeva deyir ki, həyat yoldaşının vəkilləri Ceyhun Yusifov və Elnur Quliyev məhkəmə nəzarəti qaydasında həmin qadağanın aradan qaldırılması üçün şikayət veriblər: "8 aydır uşaqları ilə görüşə bilmir. Müstəntiq Aslan İbrahimov belə əsaslandırır ki, uşaqlarla görüş istintaqa maneçilik törədə bilərlər. 6-7 aylıq uşaq istintaqa necə mane ola bilər? Adına da məhdudiyyət deyirlər. Məhdudiyyətin bir əvvəli, bir də sonu olmalıdır. Bu məhdudiyyət deyil, faktiki olaraq qadağadır. 4 ay əvvəl Konstitusiya Məhkəməsinə müraciət olunub. Amma Konstitusiya Məhkəməsi işə baxmır, nəzarətə götürmür.

Bura Samirin son ümidi idi. O özünə qəsd edib. Bundan sonra müstəntiq 8 aylıq fasilədən sonra onun yanına getdi. Aclıq elan edib, günü-gündən psixologiyası pozulur".

Z.Əliyeva bildirir ki, həyat yoldaşının telefon danışığına da qadağa qoyublar: "Mən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevdən xahiş edirəm, bu işi nəzarətə götürsün. Qanunvericiliyə uyğun tədbir görülsün. Məhdudiyyət aradan qaldırılsın, uşaqları ilə görüşə şərait yaradılsın".

Z.Əliyeva deyib ki, vəkillərə də təzyiqlər olunur, onların müdafiədən imtina etmələri üçün səylər göstərilir.

Qeyd edək ki, S.Əliyev həbsindən sonra Baş Prokurorluğun Ağır cinayətlərə dair istintaq idarəsində onun təqsirli bilindiyi qətl işi üzrə Aslan İbrahimovun rəhbərliyi ilə istintaq qrupu araşdırmalara başlayıb. İstintaq müddətində S.Əliyevin yaxınları ilə telefon danışığının qadağan olunması və görüşlərdən məhrum edilməsi haqda qərar verilib. Belə qadağaların tətbiq olunmasının səbəbi açıqlanmayıb. Üstəlik, vəkillərin müdafiəni qurmalarına da çox ciddi əngəllər yaradılıb. S.Əliyev Cinayət Məcəlləsinin qəsdən adam öldürməyə cəhd və qəsdən adam öldürməkdə ittiham olunur. O, keçmiş həyat yoldaşı - 1981-ci il təvəllüdlü Natəvan Əliyevanı öldürməkdə şübhəli bilinərək həbs edilib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 47 (6368) 29 fevral 2016

# FİFA-nın yeni prezidenti bəlli oldu

## Azərbaycanın da dəstəklədiyi Canni İnfantinonu prezident İlham Əliyev təbrik edib

**Beynəlxalq Futbol Federasiyasının (FİFA) nəhayət, yeni prezidenti bəlli oldu. UEFA-nın baş katibi olan Canni İnfantino 4 namizəd arasından ən çox səsi toplayıb. Təşkilatın Surixdəki konqresində baş tutan seçkidə Canni İnfantino FİFA üzvlərinin 207-sindən 115-nin səsini toplayıb.**



Onun əsas rəqibi şeyx Salman İbrahim əl-Xəlifə 88, İordaniya şahzadəsi Əli bin Əl-Hüseyn isə 4 səs toplayıb. FİFA baş katibinin keçmiş müavini, fransalı Lerom Şampana səs verən olmayıb. Sonda seçkilərin nəticəsinə etiraz edən olmayıb. Canni İnfantino 2019-cu ilədək bu vəzifədə çalışacaq.

FİFA-nın 9-cu prezidentinin müəyyən edildiyi seçkidə Azərbaycanı AFFA-nın prezidenti Rövnəq Abdullayev, vitse-prezident Elşad Nəsirov və baş katib Elxan Məmmədov təmsil edib. Azərbaycanın da bu seçkidəki namizədi Canni İnfantino olub.

Yeni prezident 15 ilə yaxın UEFA-da müəyyən postlarda çalışıb. 6il UEFA-nın baş katibi olub. Avropa ölkələrinin futbol federasiyaları ilə yaxın əlaqələri olub. Məhz onun yeni prezident seçilməsində bu amil böyük üstünlük təşkil edib.

İnfantinonun FİFA-ya rəhbər seçilməsi münasibəti ilə prezident İlham Əliyev də ona təbrik məktubu göndərib. "Bu məsul və şərəfli vəzifəyə seçilməyiniz futbolun inkişafı sahəsində xidmətlərinizə verilən yüksək qiymət, beynəlxalq idman ictimaiyyətinin Sizə olan böyük etimadıdır. İnanıram ki, Azərbaycan ilə FİFA arasındakı əməkdaşlıq bundan sonra da müvəffəqiyyətlə davam edəcək. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar diləyirəm"- deyə president təbrik məktubunda qeyd edib.

Yeni prezidentin seçilməsindən sonra əksər idman mütəxəssisləri, futbolçular bunu normal qarşıladıqlarını bildiriblər, prezidenti təbrik ediblər. Lakin fərqli fikirlər də səsləndirənlər də olub. Onlardan ən qalmaqallısı isə dünya şöhrətli futbolçu Diyeqo Maradonaya məxsus olub. Argentinalı məşhur futbolçu yeni prezidenti rüşvətxor adlandırıb və onun rəqiblərinin kifayət qədər yaxşı potensialının olduğunu bildirib.

"Mənim fikrimcə, İnfantino ən axırıncı satqındır. Canninin rəhbəri (Mişel Platinini nəzərdə tutur), demək olar ki, rüşvətxorluq üstündə həbs olunacaq, amma o, heç nə olmamış kimi işləməyə davam edir. O, püşk atmada saxtakarlıq edib. İndi isə FİFA prezidenti olub. Hər şey çox pisdir. Prezident elə bir adam olmalıdır ki, püşk atmada şarların yerini dəyişib sponsorlardan milyonlar qazanmasın", - deyə Maradona yeni seçilən prezident haqqında verdiyi səs-küylü açıqlamasında bildirib.

❑ **İLKİN**

# Qan çanağıdır, uzaq dur



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**O gün yol polisinin maşınını çəkicləyən gəncin ailəsindən, qonum-qonşularından alınan videomüsahibəni, evlərindən hazırlanan reportajı izlədim. Məlum, günün, ayın, hətta ilin hadisəsi idi. Adam əlində çəkiclə yol polisinin maşınını vururdu, gəlib-gedənlər bu mənzərəni mobil telefonla çəkirdi. Olay idi əslində. Reportaj boyu başda anası, qonum-qonşusu olmaqla hər kəs iddia edirdi ki, idmançı olan bu gənc olduqca mədəni, səviyyəli biri idi. Ömür billah məhlədə dalaşmaz, heç kimə aqressiv münasibət göstərməzdi və s. və i.a.**

Açığı, mən də anlayıram ki, kondisioner ustasının çantasında çəkic ola bilər. Fərqindəyəm ki, o gəncin üstündə narkotik olması inandırıcı deyil, çünki idmançıdır. Başa düşürəm ki, adam maşınına qanunsuz həbs qoyulması ilə bağlı polisə verdiyi suala cavab almadığı üçün qəzəblənib... Amma mənim anlamadığım bilirsiz nədir? Cəmiyyətdə gün-gündən dozası artan bu aqressivliyə normal baxılması. Düzü, mən qorxuram belə adamlardan. Səbəb nə olursa olsun, ikinci sərt sözdən sonra əlinə çəkic alıb, maşınların üstünə hücum edən adamların ikinci hədəfinin insanlar olmayacağı məndə ciddi şübhə yaradır.

Yan-yörəmiz o qədər aqressiv, qeyri-adekvat insanlarla doludur ki. İnsanıq, yolda çaşıb maşınla kimə iki-üç saniyəlik problem yaradırıqsa, qarşılığı mütləq söyüş olur. Adamlar dincəlmir, gəlir maşınını səninki ilə paralel sürür, pəncərəsini açır, israrla sənin də şüşəni açmanı tələb edir. Açırsan... söyüş. Prinsipcə, sən onun nə malına, nə canına ziyan vermisən. Bir-iki saniyəlik dalğınlıqla gec sürmüsən, ya da çaşıb buna yol verməmisən. Söyüş, özü də neçə mərtəbəlisi... Düşünürsən ki, hələ yaxşı qurtardım, bu, sözlü şiddətdən əməli şiddətə də keçə bilərdi. Nəqliyyat canavarlarının insanın qanına susadığını belə hallarda daha çox anlayırsan.

O gün gözümün qabağında əcaib bir insidentin şahidi oldum. Bir qadın məhlədə qonşu kişiyə "bu bağça bizim ərazidi, bura əşya qoymayın" deyirdi, kişi də etiraz edirdi. Sonra ənənəvi olaraq mübahisədə təzyiq yüksəldi, kişi qadına "eşitmirsən, deyirəm ki, götürəcəm də əşyaları, adama qulaq asmırsan" dedi. Qadın uzaqda idi, qayıtdı ki, "sən mənə kar deyirsən?" Mübahisəni evdən dinləyən qadının oğlu söhbəti araşdırmadan eləcə "kar" sözünə görə düşdü məhləyə, gəldi qonşusunun yanına və... Davamını varın özünüz təsəvvür edin. "Sən mənim anama kar dedin"lə başladı, ucundan tutdu ucuzluğa getdi... Qan çanağı deyirlər belə adamlara. Kondisioner ustası olan məhbus qardaş da onun kimi.

Mən demirəm ki, bizimlə hamı mələk kimi rəftar edir. Tıxacın ortasında dayanıb, vəziyyəti düzəltməyən yol polisinə iradını bildirirsən, "get bozbaşını bişir" deyə cavab verir. Banka gedirsən, qapıda dayanan nəzarətçi belə adamla Milli Bankın müdiri kimi danışır. Mağazada satıcı qıza "bu kofta niyə belə bahadır" soruşursan, "xoşun gəlmir, get başqa yerə. Bura brend geyinənlər üçündür, sənlik deyil" deyib, hədsizlik edir. Bunun ədəbsiz gənci var, özünü-sözünü bilməyən yaşlı qonşu xalası var, avtoşu var... İndi hamımız əlimizə çəkicmi götürək? Çantamızda bıçaqmı gəzdirək? Bizimlə hər dəfə əsəbləşdirici, qıcıqlandırıcı tonda danışanı bu cür cəzalandıraq? O zaman ibtidai insandan fərqimiz nə oldu?

Elə anlarda sadəcə bir şeyi düşünmək lazımdır. Autotreninq etmək lazımdır. Qarşındakının səviyyəsinə enməyəcəksən, onun tərbiyəsizliyinə adekvat davranmayacaqsan, özünün ondan qat-qat artıq olduğunu düşünəcəksən... Bunları bacarmadınsa, "dəlidir də" deyib keçəcəksən... Əks halda, bir neçə dəqiqəlik çılğınlığın sonu dəmir barmaqlıqlar arasında yekunlaşır. Narkoman "olursan", xuliqan "olursan", dəli "olursan"... Təkcə azadlıqda olmursan... Dəyərmi? Əsla...

# Ölkədə uşaqlar arasında kəskin virus infeksiyası yayılıb

## Rəsmi olaraq problemin ciddiliyi açıqlanmasa da, xəstəliyin ciddi ağırlaşmalar verdiyi vurğulanır...

**Bir aya yaxındır ki, ölkə ərazisində kəskin virus yayılıb. Daha çox paytaxt Bakıda müşahidə olunan virusla bağlı orta məktəblərdə və bağçalarda yoxlama və dezinfeksiya işlərinin aparıldığı da bildirilir. Rəsmi olaraq problemin ciddiliyi açıqlanmasa da, uşaqlarda müşahidə olunan bu xəstəliyin ciddi ağırlaşmalar verdiyi vurğulanır.**



"Sinifdə 24 uşaqdan 9-u bu gün dərsə gəlməyib. Hamısının yüksək qızdırması var, temperaturu aşağı salmaq mümkün olmur",- deyə paytaxt məktəblərindən birində müəllimə işləyən Almaz xanım bildirib. Onun sözlərinə görə, xəstəlik hətta bir həftədən çox davam edir və məktəblilərin səhhətində problemlər yaradır. "Daha çox qusma ilə müşahidə olunur. Uşaqlar günlərlə halsız olurlar. Biz bütün uşaqlara dərsdə tibbi maska ilə oturmağı tövsiyə edirik. Həmçinin, tez-tez əllərini spirtlə silirlər. Sinif otaqları da dezinfeksiya edilir. Bu, əvvəlki illərdəki mövsümi viruslardan kəskindir",- deyə müəllimə əlavə edib.

Qeyd edək ki, ölkədə donuz qripi şübhələri olsa da, Səhiyyə Nazirliyi bunu təkzib edir. Nazirlikdən bir müddət əvvəl bildirilib ki, Azərbaycanda laborator müayinələr aparılır. Ölkədə kəskin respirator viruslar aşkar olunur. Amma indiyədək ölkədə donuz qripi aşkarlanmayıb. Qeyd edək ki, virus uşaqlarla yanaşı, yaşlı insanlarda da tez-tez rast gəlinir.

**Həkim Hüseyn Mehtiyev** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, sözügedən infeksiya ilə bağlı hər hansı ciddi laborator analiz, araşdırma aparılmayıb: "Son zamanlar insanlar, daha çox uşaqlar arasında virus, infeksiya yayılıb. Buna sadəcə virusdur deyib keçirlər. Amma tam müəyyən edilməyib. Nazirlikdən normal açıqlama verilmir ki, hansı virusdir, nədir. Ümumiyyətlə ,son zamanlar apardığımız müşahidə göstərir ki, bu virus uşaqlarda çox kəskin keçir. Qusma, işləmə, yüksək temperatur, baş ağrıları ilə müşayiət olunurş. Bu, günlərlə davam edir. Bəzən olur ki, burunda tutulmalar olmur, amma temperatur var, fasiləsiz qusmalar var. Uşaqlarda yüksək temperatur bəzən qıcolma halları ilə müşayiət edilir. Belə çox kəskin formada xəstəlik gedir. Ümumi virus infeksiyası adı ilə adlandırılır. Evdə belə xəstələri saxlamaq olmaz, yubatmadan həkimə aparmaq lazımdır. Evdə müalicə cəhdləri xəstəliyi ağırlaşdıra bilər. Uşaq xəstələnibsə, dərhal həkimə müraciət etmək lazımdır. Xəstəlik günlərlə orqanizmdən çıxmır, orqanizmi həddindən artıq zəiflədir və ciddi fəsadlar verir. Virusun hansı növüdür, bilinmir. Bununla bağlı rəsmi qurumlar heç bir açıqlama vermirlər. Sözsüz ki, virus yoxlanmalıdır. İndiki çox həssas bir dövrdə, bir yandan qonşu ölkələrdə donuz qripi və sair virusların yayıldığı ərəfədə xəstəliklə bağlı şikayəti olan insanların hamısı ciddi şəkildə yoxlanılmalıdır. Bizdə çox zaman əksinədir, qorxulu virus olanda da açıqlamırlar, gizlədirlər. Ölüm halı olandan sonra bilinir ki, bu, təhlükəli imiş. Yenə deyirəm, evdə müalicə yolverilməzdir. Evdə müalicə olarsa, ağırlaşma halları qaçılmazdır. Xəstəliyin ciddiləşmə təhlükəsi var. Yaxşı olardı ki, Səhiyyə Nazirliyi, infeksiya şöbəsi mətbuata çıxıb normal məlumat versin. Bilək ki, Azərbaycanda son vaxtlar yayılan vurus nədir. Qorxuludur, ya yox?".

Ölkənin baş pediatrı Nəsib Quliyev isə uşaqlar arasında yayılan bu xəstəliyin mövsümü xarakter daşıdığını bildirib. Onun sözlərinə görə, yayılan bu xəstəliklər kəskin respirator viruslardır.

Qeyd edək ki, xəstəlik çox zaman ilk olaraq boğazda qıcıqlanma, boğaz ağrısı, yüksək hərarətlə müşahidə edilir. Baş, boğaz ağrıları, öskürək, asqırma və titrətmə də əlamətlər sırasındadır. Həkimlər infeksiyanın qarşısını vaxtında almaq üçün ev şəraitində müalicəni məsləhət görmür. Bu, yuxarı tənəffüs yollarının epidemiyası kimi də qiymətləndirilir. Ekspertlər qripəbənzər kəskin respirator virus infeksiyası barədə rəsmi qurumların açıqlama yaymamasından narahatlıqlarını bildirirlər.

N.Quliyev isə qeyd edir ki, kəskin respirator virus xəstəliyinə yoluxmuş uşaqları özbaşına müalicə etmək düzgün deyil: "Uşaq yataq şəraitində olmalıdır. Həmçinin, temperaturunu diqqət mərkəzində saxlamaq vacibdir. Uşağa daim hərarətsalıcı dərmanlar vermək olmaz. Həkim məsləhəti olmalıdır".

❑ **RÖYA**

# Rəqslərdə kişilərlə yarışa çıxan, hoppanıb-düşən xanımlar

## Toylarımızda “Vağzalı” dəbdən düşür, yerinə əcnəbi musiqisi gəlir, səbəb?..

**Milli rəqslərimizin hər birində xalqımızın tarixi, milli dəyərləri, adət-ənənəsi, psixologiyası yaşayır. Tanınmış rəqqaslar da dəfələrlə qeyd ediblər ki, rəqslərimiz heç də primitiv hərəkətlərdən, musiqinin tempinə uyğun ritmik bədən hərəkətlərindən ibarət deyil. Hər bir rəqsin özünəməxsus xüsusiyyəti var.**

Məsələn, “Uzundərə”, “Heyvagülü”nə müdriklik, bəy ədası, “Vağzalı”da sevinc göz yaşları, “Tərəkəmə”də bir tərəkəmə ab-havası, “Qoçəli”də igidlik, “Yallı”da birlik, “Turacı”da, “Ceyrani”də zəriflik tərənnüm olunur.

Beləliklə, rəqslərimizdə hər hərəkət ölçülüb-biçilib. Rəqslərdə qadınların hərəkətləri incəliyi, zərifliyi, kişilərdə isə cəsurluğu, cəldliyi bildirir. Lakin bu gün toy və məclislərdə, el şənliklərində bu amil tamamilə sıradan çıxmağa başlayıb. Qız-qadınlar hoppanıb düşməkdə sanki kişilərlə yarışa çıxır, rəqslərində kişilərə məxsus kobud, cəld, əndazədən çıxan hərəkətlər edirlər. Bununla bağlı internet resurslarında çoxlu sayda videolar da paylaşılır. Mətbuatda da bəzən bu cür videolara “qız öz rəqsi ilə hər kəsi heyran qoydu” deyə başlıqlar qoyaraq yayılır.

Əslində isə milli qadın rəqslərimizdə heç zaman hoppanıb-düşmək olmayıb. Qadınlarımız uzun, zərif paltarlarına uyğun rəqslər ediblər. Yalnız “Yallı” rəqsində kişilərlə bərabər bəzi iti ayaq hərəkətləri olub. Bu da qadın incəliyinə, zərifliyinə heç də zərər gətirməyib.

Yaşlı nəsli isə daha çox bir məsələ narahat etməyə başlayıb. Gəlinlər artıq “Vağzalı” rəqsindən imtina edərək Avropa musiqilərinə, rəqslərinə üstünlük verir, məclisə yad rəqslər daxil olmağa başlayır. Bu amil demək olar ki, şəhərlərdə dəb halına çevrilməyə doğru gedir.

Təkcə qadınlar deyil, kişilərin də rəqslərində çoxlu sayda yad elementlər görünməyə başlayıb. Onların rəqslərində moldav, ləzgi, ərəb-fars hərəkətləri, motivləri geniş yer almağa başlayıb. Bu azmış kimi milli rəqslərimizi təbliğ edən rəqqaslar da milli geyimlərimizi fərqli üslubda təqdim etməyə çalışırlar. Beləliklə, milli rəqslərimizin quruluşu, dəyəri itirilməyə, unudulmağa başlayıb.



**Aliyə Ramazanova:** “Belə hallarla rastlaşanda deyirəm, ay Allah, bu qız nə üçün özünü bu günə salır?”
**Roza Cəlilova:** “Bizim zamanda gəlin ağzını açıb yemək yeməyə utanardı, indi isə “Ləzginka" sifariş edir”

Tanınmış rəqqasə, əməkdar artist Aliyə Ramazanova məsələ ilə bağlı “Yeni Müsavat”a danışdı. Rəqqasə bu cür hallara çox məyus olduğunu dedi: “Bu cür hallarla rastlaşanda deyirəm, ay Allah, bu qız nə üçün özünü bu günə salır? Axı kənardan insana min göz baxır. Oğlanların da hərəkətlərində nə istəyirsən var, ərəb, türk rəqsləri və sairə. Necə ki, musiqilərimizə toxunurlar, bu da rəqslərimizə də təsir edir”.

Aliyə Ramazanova milli rəqs geyimlərimizdən də söz açdı: “Qədimdən qadınlarımızın çox gözəl geyimləri var. Bura yubkalar, bəzəkli köynəklər və sairə daxildir. Bu cür şəhanə geyimlərdə müəyyən gözəl rəqslər ifa olunurdu. Bunlar "İnnabı", “Tərəkəmə”, “Nazlana-nazlana”, “Vağzalı-Mirzəyi” və sairə rəqsləridir. Kənd yerlərində zəhmətkeş insanların işini göstərmək üçün, məsələn, pambıq, üzüm yığımına aid, ağır zəhmətdən sonra gözəl yallılar olub. O geyimlər şəhər geyimlərindən fərqlənir, tamam başqadır. Bu geyimlərdə aşağıdan bir qarış yuxarı, amma enli olan yubka, üstdə arxalıq və ya köynək, gün vurmasın deyə başlarda çalma və ya yaylıq olur. Hətta soyuqdan qorunmağı göstərmək üçün qalın corablar da geyinilir. Beləliklə, rəqs edilərkən kişilər öz məharətlərini göstərməyə başlayırlar. Qadınlar da onlara cavab olaraq bildirirlər ki, biz də zəhmətkeşik və hərəkətləri ilə bunu göstərirlər. Bu zaman iti hərəkətlər mümkündür. Lakin bu gün toylarımızda bu artıq eybəcər hal alıb. Qadın incə, zərif məxluqdur. Qadınlarımız rəqs edərkən sanki bildirməlidir, bu mənəm, bu mənim gözəlliyimdir, bu mənim qollarımdır və sairə".

Xalq artisti Roza Cəlilova milli rəqslərimizə xələl gətirən hərəkətləri bu cür tənqid elədi: “Zamanında Bakı Filarmoniyasında toy quruluşu var idi. O quruluş ibrət, örnək idi. Orda gəlin, bəy, gəlin və bəyin bacısı, qardaşı, yengə var idi. Heyf ki, indi həmin quruluşu vermirlər. Bəlkə yenə də o quruluşu hazırlasalar camaat da baxar bilər ki, ümumiyyətlə, toy nə deməkdir. Bizim milli xalq musiqimiz çox zəngindir. Xalq musiqimiz ona görə deyirik ki, bu musiqi içimizdən gəlir. Yaxşı olar ki, toylarımızda bu musiqilər daha çox çalınsın, bəlkə onda qız-qadınlarımız hoppanıb-düşməz, kişi kimi oynamazlar”.

Xalq artisti toylarda ortalıqdan çıxmayan, kişilərlə bərabər iti templi rəqslər oynayan gəlinləri də qınayıb: “Bizim zamanımızda qadınlar toylarda çox nadir hallarda oynayardı. İndi gəlinlər oynayır, sakit oturmurlar, siz bundan danışın. Gəlinlər indi ləzginka sifariş edir. Amma bizim zamanda gəlin ağzını açıb yeməyə utanardı. İndi isə gəlinlər məclisdə duvaqsız oturur, ortaya düşüb oynayırlar”.

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işığı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**
**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**
**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



# Şamaxıda tələbə qız dəm qazından öldü

**İsmayıllı rayon sakini Şamaxıda kirayədə yaşadığı evdə dəm qazından boğularaq ölüb. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə fevralın 28-i səhər saatlarında Şamaxı şəhərinin H. Aslanov küçəsindəki 18 saylı evdə qeydə alınıb.**

İsmayıllı rayonu Qubaxəlilli kənd sakini, 1994-cü il təvəllüdlü Mikayılova Aygün Yunis qızı hamamda kustar üsulla quraşdırılan su qızdırıcısının nasazlığı səbəbindən dəm qazından boğularaq ölüb.

22 yaşlı qızın meyiti müayinə üçün Respublika Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Şamaxı rayon şöbəsinə aparılıb.

Qeyd edək ki, Aygün Mikayılova Şamaxı Dövlət Humanitar Kollecinin ikinci kurs tələbəsi olub. Faktla bağlı Şamaxı rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

Yeni Müsavat
N 47 (6368) 29 fevral 2016

# Devalvasiya alış-veriş xəstələrini "vurdu"

## Şoppinq asılılarının bilinməyən cəhətləri və bundan qurtuluş yolları

**Məlumdur ki, devalvasiya artıq qapını döyüb. İnsanlar xərclərini ancaq minimal ehtiyaclar üçün müəyyənləşdirirlər. Amma bu arada yeni bahar mövsümü geyimləri də mağazalarda yerini alıb. Ciblərinə və vitrindəki geyimlərə baxanlar bütün hallarda tərəddüd edirlər.**

Lakin bütün hallarda alış-veriş həvəskarları üçün "qırmızı işıq" anlayışı yoxdur. Onlar tərəddüd etmədən mağazalara girir, son qəpiklərinə, kredit kartlarının son limitinə qədər pullarını xərcləyirlər.

**Alış-veriş emosional ehtiyacları ödəyir?**

Türkiyənin "Milliyet" qəzetində bununla bağlı ilginc araşdırma yayımlanıb. Məqaləyə görə, alış-veriş vaxtilə insanların öz ehtiyaclarını ödəməsi olduğu halda, hazırda bəzi emosional ehtiyaclarını ödəmələri üçündür. Ona görə də bu işin sentimental bir çərçivəsi var. Yəni insan almaqdan daha çox, almağın yaratdığı həzzi yaşamaq istəyir. Araşdırmalar üzə çıxarır ki, alış-veriş bir çox hallarda hirs və əsəbdən yox, o an üçün hiss etdiyin ağrını azaltmaq ehtiyacından yaranır. Üzüntü duyan insan bir qayda olaraq hislərinə nəzarət edə bilmir. Çünki üzüntü yaşayan insanlar adətən kədərlərinin qaynağını başqaları ilə, ya da şansla açıqlamağa daha meylli olurlar. Bu səbəbdən də alış-veriş də bu itirilən nəzarət hissini yenidən bərpa etmək məqsədi daşıyır.

Beyin kimyası baxımından nəzərə alanda isə alış-veriş zamanı seratonin - xoşbəxtlik hormonunun da miqdarı artır. Maraqlıdır ki, həyatımızda bir çox əməllər əslində bu seratoninin təsiri yaradır. Məsələn, gün işığı, idman, ya da masaj. Amma eyni zamanda qazanmaq, sahib olmaq da buna bənzər təsir göstərir. Depressiya zamanı insanlar daha çox itki hissini yaşayır və alış-veriş o itkini sanki geri qaytarır. Bu səbəblə də bir çox insan, xüsusən də qadınlar darıxanda, ya da depressiyaya düşəndə alış-verişə yönəlirlər.

**Xəstəliyin səbəbi - sahib olma ehtirası...**

Sözügedən xəstəliyin daşıyıcıları böyük əksəriyyətdə qadınlardır. Onların bu xəstəliyi daşımaları cəmiyyətdə normal qəbul olunur. Bu, təxminən kişilərin birdən artıq qadınla eyni vaxtda münasibət qurmasına bənzəyir. Sonuncu variantda "kişidir, edə bilər" deyilirsə, qadınlara da eyni anlayış göstərilir.

Alimlər onu da müəyyənləşdirib ki, bu xəstəliyə düşməyin də xüsusi səbəbləri var. Bunlardan biri sahib olma ehtirasıdır. Bu xəstəliyin daşıyıcıları "pulum var, ya yox. Ehtiyacım var, yoxsa yox" kimi suallar ətrafında düşünmürlər. Onlar gördükləri, bəyəndikləri hər şeyi satın alırlar. Özlərinə yeni bir şey almayanda isə insanlar özlərini pis hiss edir, sıxıntı keçirir, hətta depressiyaya düşürlər.

Xəstəliyi yaradan ikinci səbəb isə insanda yaranan dəyərsizlik hissidir. Daha dəqiq ifadə etsək, dəyərsizlik, yalqızlıq, acıq, yasaqlanma kimi neqativ duyğular da alış-veriş xəstəliyinə yol aça bilər. Məhz bu səbəbdən bəzi insanlar alış-veriş edərək, özlərini dəyərli hiss edirlər. İnsan satın aldıqlarının ona dəyər qatacağına, güclülük hissi verəcəyinə inanır.



Ancaq istədiyi şeyləri aldığı zaman ilk andakı həzz xaricində xəyal etdiyi hissi yaxalaya bilməyəndə dəyərsizlik hissi bu dəfə daha ağır şəkildə geri qayıdır. Bu zaman vəziyyət daha da qəlizləşir. İnsan o ilk andakı alış-veriş həzzini yenidən yaşamaq üçün gedərək artan bir sürətlə mağazalara hücum edir.

Bu məsələdə daha bir diqqətli məqam uşaqlarla bağlıdır. Belə ki, övladı ilə hörmət-izzət səviyyəsində münasibət qura bilməyən, amma maddi durumu yüksək olan valideynlər öz əskikliklərini aldıqları saysız-hesabsız hədiyyələrlə öldürməyə çalışırlar. Bu da həmin uşağın gələcəkdə potensial alış-veriş xəstəsi olmasına gətirib çıxarır. Uşaqlar da hər istədiyinə sahib olmaq istəyirlər. Və bunun qarşısını almaq mümkün olmur. Evində bir oyuncaq mağazasındakı qədər oyuncağı olan uşaqcün onlar yox, mağaza rəflərindəki oyuncaqlar daha cazibədar və maraqlıdır. Halbuki o oyuncaq rəfdən götürülüb, uşağa alındığı andan etibarən bütün cazibəsini, marağını itirmiş olur. Bu da xəstəliyin ən parlaq nümunəsidir.

**Əgər bunu normal sayırsa, müalicədən əlini üzsün...**

Hər dərdin bir dərmanı var, şübhəsiz. Həkimlər müəyyənləşdirir ki, öncə bu davranışın altında yatan səbəblər aradan qaldırılmalıdır. Müalicə üçün ilk addım heç şübhəsiz ki, bunun xəstəlik kimi qəbul edilməsidir. Əgər şəxs bunun xəstəlik yox, normal həyat tərzi, xobbi, zövq olduğunu iddia edirsə, müalicədən əlini üzsün.

Qəbul edən şəxs isə psixoloqa müraciət edə bilər. Sonuncunu özünə rəva bilməyənlər isə praktik məsləhətlərə baş vursun. Bunlardan birincisi bayıra çıxanda kredit kartlarını götürməmək və ya pulqabına az pul qoymaq ola bilər. Bundan başqa, həyatın başqa sahələrində vaxt keçirmək də çıxış yolu ola bilər. Yemək, tikiş, rəsm... kursları ilə maraqlanmaq həm də zövqün kosmetik dəyişikliyi sayıla bilər.

Psixoloqlar alış-veriş xəstələrinə məsləhət görür ki, normadan artıq bazarlıq etdikləri zaman yaşadıqları suçluluq duyğusunu yaddan çıxarmasınlar. Çünki bu da onları narahat edir. Sözügedən duyğunun yaranmasına isə maddi problemlər səbəb olur: sən nə qədər məntiqsiz şəkildə alver edirsənsə, o qədər də büdcənə ziyan vurursan.

Psixoterapiyada sübut edilib ki, əslində alış-veriş etdikdən sonra insanın içində yaranan boşluq dolmur. Bu, müvəqqəti və aldadıcı bir xoşbəxtlik duyğusudur. Əslində bu insanların özlərini yaxşı hiss etmələri üçün iradəyə yox, sözlərə ehtiyacı var. Doğrudur, bu insanlar öz ehtiyaclarını maddi olaraq qarşılaya bilirlər. Amma sonradan çox yeyib, bundan utanan insanlar kimi hiss edirlər özlərini. Çünki heç aldıqları şeylərdən də istifadə etmirlər. Onlar şkafda qalır.

**Psixoloqlar yol göstərir - qutrulun**

Bəs məsləhətlər nədir? Bu tip xəstələr üçün psixoloqların göstərdikləri yollar aşağıdakılardır:

Bəyəndiyiniz bir malı görəndə almayın. Bir az gözləyin və ona həqiqətən ehtiyacınız olub-olmadığını düşünün. Və ya mağaza işçilərindən bəyəndiyiniz malı sizin üçün ayırıb saxlamalarını xahiş edin. Əgər bir neçə gün sonra o malı hələ də almaq istəyirsinizsə, o zaman alın. 2. Özünüzə hər ay bir alış-veriş büdcəsi hazırlayın və büdcəni əsla zorlamayın, aşmayın. 3. İki həftə içində etdiyiniz bütün alış-veriş xərclərini bir kənara yazın. Bu, sizin alış-verişə nə qədər çox pul xərclədiyinizi görmənizə səbəb olacaq. 5. Kredit karınızın(əgər varsa) limitini aşağı salın.

Psixoloqlar düşünür ki, deyilən məsləhətlərə əməl edənlər tez bir zamanda sözügedən xəstəliyin pəncələrindən də qurtula biləcək. Psixoloqlar onu da araşdırıb ki, iri alış-veriş mərkəzləri müştərilərin daha çox cəlb edilməsi üçün xüsusi hiylələr tətbiq edirlər və bu zaman mütəxəssis yardımından istifadə edirlər.

Sonuncular elmi erqonomiya adlı sahəni təmsil edirlər və insanların alış-veriş zamanı necə düşündüyü, necə reaksiya verdiyi barədə dinamikalar üzərində işləyir. İlk təsbit: İnsanların çoxu solaxay olmadıqları üçün alış-veriş mərkəzlərinə girərkən öncə sağ tərəfə yönəlirlər. Buna görə də böyük mağazaların əksəriyyəti sağ tərəfdə yerləşdirilir. 2. Soyunma kabinələrini qəsdən mağazanın sonunda yerləşdirirlər ki, ora çatana qədər müştəri gözünə dəyən bir neçə qiyafəni də geyinmək üçün götürsün. 3. Market arabaları qəsdən böyük hazırlanır ki, insan hər dəfə ona baxdıqca guya az alver etməsi ilə bağlı təəssürata qapılsın. 4. Mağazalarda iri aynaları həm də ona görə qoyurlar ki, alış-veriş etmək istəməyən insan belə orada özünə və ətrafındakı geyim-gecimli insanlara baxıb kompleksə düşsün, nəticədə isə özünə paltar alsın. 5. Reklam kampaniyalarındakı "fürsəti qaçırmayın", "70 faiz" endirim kimi çağırışlar da insanı dərhal nəsə almağa təşviq edir.

**Satıcı "o cür qadınlar mağazaya tək gəlirlər" deyir**

Böyük geyim mağazalarından birində satıcı işləyən Afət Muradova deyir ki, onlar bu cür müştərilərlə tez-tez qarşılaşırlar. Müsahibimizin sözlərinə görə, həmin qadınlar tez-tez səhərlər, işə getməzdən əvvəl mağazaya dəyir və mağazanı öz evlərinin şkafı kimi hiss edirlər: "Bəzən 50 paltar dəyişirlər. Hər biri haqda da satıcıların fikrini soruşurlar. Axırda birini alırlar. Amma növbəti gəlişlərində biz onların əynində heç də həmin aldıqlarını görmürük".

Müsahibimiz deyir ki, satıcının əsas vəzifəsi mal satdırmaq olduğu üçün onlar həmin qadınlarla dost kimi davranır, alacaqları geyim barədə ancaq müsbət fikirlər söyləyirlər: "Bizim mağazada kameralar var və satış müdirimiz onu ciddi şəkildə izləyir. Biz heç bir müştəriyə "Bu, sizə yaraşmadı" deyə bilmərik, buna görə cərimələnərik. Biz müştərilərimizə bütün variantları təqdim edirik, onlar arasından birini seçirlər. Bizim vəzifəmiz çoxlu mal satdırmaqdır. Ona görə də həmin qadınlardan razıyıq. O cür müştərilər mağazaya bir qayda olaraq həyat yoldaşları ilə gəlmirlər. Çünki ərləri onları bu addımdan çəkindirməyə çalışır. Onlar isə belə münasibət görəndə çox aqressivləşirlər".

Tarixdəki ən məşhur alış-veriş xəstələri sırasında Mariya Antuanetta, Jaklin Kennedi, Şahzadə Diana və Meri Todd Linkolnun adı xüsusilə vurğulanır. Amerika prezidenti Con Kennedinin həyat yoldaşı olan Jaklin və Şahzadə Çarlzın həyat yoldaşı olan Diana paltar, ayaqqabı, antik əşya və sənət əsəri alveri asılısı sayılırdılar. Sabiq ABŞ prezidenti Avraam Linkolnun həyat yoldaşı Meri Toddun isə əlcək xəstəsi olduğu deyilirdi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 47 (6368) 29 fevral 2016




## WhatsApp bu telefonlarda işləməyəcək

Mesencer BlackBerry, Android və Nokia-nın bir sıra əməliyyat sistemlərində işləməyəcək. Mesencer Google, Apple və Microsoft şirkətlərinin ən çox istifadə olunan platformalarına diqqət yetirəcək və daha əvvəllər buraxılmış versiyaları dəstəkləməyəcək. Bu sıraya BlackBerry, BlackBerry 10, Nokia S40, Nokia Symbian S60, Android 2.1, Android 2.2, Windows Phone 7.1 əməliyyat sistemləri daxildir. Şirkətin məlumatında bildirilir ki, bu əməliyyat sistemləri artıq mesencerin bütün funksiyalarından istifadə etməyə imkan vermir. Şirkət belə telefonlardan istifadə edənlərə əməliyyat sistemlərini daha sonrakı versiyalara qədər yeniləməyi tövsiyə edir. 1 milyard istifadəçisi olan WhatsApp smartfonlar üçün ani mesajlaşma proqramıdır. Mətn mesajlarını, təsvirləri, videonu və audionu göndərməyə imkan verən proqram müxtəlif platformalarda Android, BlackBerry OS, BlackBerry 10, iOS, Series 40, Symbian (S60) və Windows Phone- da işləyir. Messenceri yaratmış şirkətin 2009-cu ildə əsası qoyulmuşdur. Şirkətin mərkəzi ofisi Santa-Klara, Kaliforniya ştatında yerləşir. Son hesablamalarına görə, WhatsApp vasitəsilə gün ərzində 42 milyard ismarış, 250 milyon video mesaj göndərilir.

# Pullarını timsahlar qoruyur



Hollandiyada polislərin evinə hücum etdiyi narkotik mafiyasının mənzilində çoxlu sayda timsah tapılıb. Amsterdam və Almere şəhərlərində təşkil edilən polis hücumlarında 11 nəfər nəzarətə götürülüb. Amsterdamdakı evlərin birində polislər timsahlarla qarşılaşıblar. Asayiş keşikçiləri timsahların həmləsindən ev sahibinin köməyi ilə xilas olublar. Polislərin açıqlamasına görə, ev sahibinin pullarını timsahlar qoruyurmuş. Narkotik tacirlərinin timsah saxlamaq üçün lazım olan icazəni aldıqları haqda məlumat yayılıb. Ona görə də heyvanlar onların əllərindən alınmayıb. Hücum zamanı 500 ədəd narkotik həb ələ keçirilib.

# Çox düşünənlərin yaddaşı zəif olur



İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanlar zəif yaddaşa sahibdirlər. Bu adamlar digərləri ilə müqayisədə daha asan depressiyaya düşürlər. Aparılan təcrübələr zamanı elm adamları həmçinin, insanların hansısa bir mövzuda qərar verərkən beyinlərinin hansı hissələrinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin fikirləşmə ilə bağlı əsas hissəsi sayılan ön tərəfdə daha çox hüceyrələr var. Qərar verməkdə çətinlik çəkən və həyat haqqında dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrindəki hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.

## Nanə çayının faydaları



1. Boğaz qurumasının qarşısını alır.
2. Ürək bulanmasını aradan qaldırır.
3. Həzm sisteminin işinə kömək edir.
4. Ağızdan gələn qoxunu itirir.
5. Sümük ağrılarını azaldır.
6. Zökəmi yüngülləşdirir.
7. Astmaya kömək edir.
8. Əsəbləri sakitləşdirir.
9. C vitaminini ilə zəngindir.
10. Allergik öskürəyə xeyirlidir.
11. Baş ağrısına yaxşı təsir edir.



## 12 yaşında doğuldu

Dünən dünyaya gəlmiş bu oğlanı dünyadakı bütün körpələrdən fərqləndirən məqam var. O, 12 il əvvəl hələ embrion olanda dondurulmuşdu. Milli.az AsiaOne-a istinadən bildirir ki, unikal əməliyyat Çinin Şansi vilayətində reallaşdırılıb. Çi Mo və Lao Syan 12 il əvvəl ikinci övladlarını gözləyirdilər. Lakin Çindəki "bir ailə-bir uşaq" siyasəti hamilə Laonun arzusunu gözündə qoymuşdu. Belədə Çi və Lao bətnindəki embrionları dondurmağa qərar vermişdilər. Embrionun 12 il donmuş vəziyyətdə saxlanması üçün onlar 3 min dollar ödəyiblər. Çindəki "bir ailə-bir uşaq" doktrinası ləğv olunandan sonra 40 yaşlı Lao ikinci övladını doğmağa qərar verib. 7 embriondan yalnız üçü normal vəziyyətdə idi və onların arasında ən yaxşı vəziyyətdə olan ikisi Laonun bətninə yeridilib. Həmin embrionlardan biri də böyüyüb. Yeni doğulmuş uşaq əslində, böyük bacısı ilə eyni yaşdadır. Sadəcə o, embrion vəziyyətdə 12 il "donmuş" halda saxlanılıb.

## Qoroskop




QOÇ - Şərikli iş görmək üçün şanslarınız artacaq. Bundan maksimum yararlanmağa çalışın. Aldığınız təkliflərə gözüyumulu razılıq verməyin. Amma hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalmalısınız.

BUĞA - Gələcək büdcənizi rahatlamaq üçün əhəmiyyətli sövdələşmələrdə iştirakınız labüdləşəcək. Ulduzlar biznesin digər sahələrində uğurlara yaxın olacağınızı da bildirir. Amma bütün hallarda soyuqdan qorunmalısınız.

ƏKİZLƏR - İş yerini dəyişmək barədə tələskənlik etməyin. Yaxşı olar ki, ulduzlara qulaq asıb pul məsələlərini qabartmayasınız. Çünki istəsəniz də, istəməsəniz də, bu günü kasıbçılıqla başa vuracaqsınız. Təki naşükürlük etməyəsiniz.

XƏRÇƏNG - Saat 15-ə qədər iştirakçısı olduğunuz bütün proseslər ürəyinizcə olacaq. Əgər daha çox maddi-mənəvi mənfəət əldə etmək istəyirsinizsə, heç kimə yalan vədlər verməyin. Götürə biləcəyiniz yükə yaxınlaşın.

ŞİR - Yaxşı olar ki, səyyar fəaliyyətdən uzaq olasınız. Əks təqdirdə günorta saatlarında soyuqdəyməyə mübtəla ola bilərsiniz. Ulduzlar uzaq yola çıxmağınızın əleyhinə olsa da, büdcənizdə artımdan xəbər verir.

QIZ - Özünüzü bədxah adamlardan qoruyun, həmkarlarınızla mübahisələrdən qaçın, yoxsa xoş məqamlar sizdən uzaqlaşacaq. Əgər bunu bacarsanız, uğurlu bir gün yaşayacaqsınız. Daxili inamınızı bərpa edin.

TƏRƏZİ - Evinizə təzə nəsə almaq istəsəniz, məhz bu günü seçin. Aldığınız hər bir təklifə razılıq verməyə tələsməyin. Nə vaxtdan bəri pulla bağlı olan çətinlikləriniz tədricən aradan qalxmağa başlayacaq.

ƏQRƏB - Bu gün pulla bağlı problemləriniz olmamalıdır. Amma qonşu və qohumlarınızla münasibətlərinizə xələl gələ bilər. Bunu nəzərə alıb bir az müdrik olun. Dinə riayət etməyi də unutmayın.

OXATAN - İşgüzar görüşlərdə iştirak etmək üçün böyük şanslarınız olacaq. Uzaq səfərləri mümkün qədər təxirə salın. Boş məsrəflərə isə ciddi pul xərcləməyin. Azyaşlılara xüsusi diqqət yetirin.

OĞLAQ - Ola bilsin ki, nahara qədər iş yerində və həmkarlarla münasibətlərdə gərginlik hökm sürsün. Təmkin göstərsəniz, sonrakı saatlarda qarşınıza qoyduğunuz ideyaların reallaşmasında heç bir çətinlik çəkməyəcəksiniz.

SUTÖKƏN - Ulduzlar qarğış və söyüşlərdən uzaq olmağı, falçı və cadugər yanına getməməyi məsləhət görür. Çünki indi sizin ruhi saflaşma prosesinizdir və gərək Tanrıya xoş getməyən addımlardan yayınasınız.

BALIQLAR - Bu gün əlinizə düşən pulları boş-boş məsrəflərə xərcləməyin. Tərəddüd etdiyiniz məsələlərdə təcrübəli insanlarla məsləhətləşmələr aparın. Nahardan sonra nüfuz dairənizi genişləndirmək şansınız artacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 32 milyon qazandı, amma arvadı onu qəbul etmədi



İngiltərənin ikinci ən tirajlı lotereyasının qalibi olan Gerry Canningsin arvadı pulunun çox olmasına baxmayaraq, ərini qəbul etməyib. Bir müddət əvvəl ərindən ayrılan kişi çek-potu udduqdan sonra bütün israrlarına baxmayaraq arvadı ilə barışa bilməyib. Lotodan pul qazandıqdan sonra arvadının onunla barışacağını ümid edib. Lakin adı açıqlanmayan qadın "32 milyon sterlinqi olsa belə onunla bir yerdə olmaq istəmirəm" deyib. Keçmiş arvadı onu bağışlamadığı üçün başqa bir qadınla evlənən Gerry keçmiş arvadının çox yaxşı insan olduğunu və onu itirməmək üçün əlindən gələni etdiyini, lakin nəticəsiz qaldığını deyib. 25 il evli qaldıqdan sonra arvadından ayrılan Gerry pulun ona arvadını unutdurmayacağını deyib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300